AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

***Baş redaktor:***
Ç.İ.Əsgərov

***Redaksiya heyəti:***
H.Q.Nəsibov
S.F.Hacıyev
X.S.Məmmədov
K.N.Abiyeva
F.M.Abbasova
C.S.Abdullazadə
A.Ç.Əliyev
Ə.İ.Əliyev
L.H.Hüseynov
R.N.İbadov
R.A.Kurbanov
M.F.Quluzadə
K.N.Mehdiyeva
F.T.Zərbiyev

***Məsul katib:***
E.S.Məmmədov

***Redaksiya ünvanı:***
AZ 1025, Bakı şəhəri, Xətai rayonu,
Yusif Səfərov küç. 26
Tel: 012-489-07-07 (daxili nömrə: 1607)

www.supremecourt.gov.az
Elektron poçt: contact@supremecourt.gov.az

***Təsisçi:***
**Azərbaycan Respublikasının**
**Ali Məhkəməsi**



## MÜNDƏRİCAT

1. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışından – 10 noyabr 1995-ci il ........ 3
2. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 6
3. Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin müraciəti ........ 8
4. Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının açılış mərasimi keçirilib ........ 10
5. Beynəlxalq Hakimlər Assosiasiyasının nümayəndə heyəti Ali Məhkəmədə olub ........ 16
6. Xankəndidə "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib ........ 17
7. Ali Məhkəmənin hakimləri və Aparatının əməkdaşları işğaldan azad edilmiş ərazilərə səfər ediblər ........ 20
8. Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərov "Danışır təcrübə" layihəsinin qonağı olub ........ 22
9. Ali Məhkəmədə "Konstitusiya və suverenlik İli"nə həsr olunmuş "Açıq qapı" günləri keçirilib ........ 23
10. Ali Məhkəmədə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş inklüziv yaradıcılıq sərgisi təşkil olunub ........ 25
11. "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş ağacəkmə aksiyası keçirilib ........ 27
12. Ali Məhkəmədə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş intellektual yarış keçirilib ........ 29
13. "Konstitusiya və Suverenlik İli" çərçivəsində Sumqayıt Məhkəmə Kompleksində regional tədbir keçirilib ........ 30
14. Gəncə Şəhər Məhkəməsində 2025-ci il "Konstitusiya və Suverenlik İli" çərçivəsində regional seminar keçirilib ........ 32
15. Şəki Apellyasiya Məhkəməsində "Konstitusiya və Suverenlik İli" ilə bağlı regional tədbir keçirilib ........ 33
16. Şirvanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində regional seminar keçirilib ........ 35

## MƏQALƏLƏR

17. *Bəhman Qəribov.* Azərbaycan Respublikasında Konstitusiya nəzarəti sisteminin formalaşması və inkişafı ........ 36
18. *Elvin Əliyev.* Azərbaycan Respublikasında insan və vətəndaşın hüquq və azadlıqlarının inzibati məhkəmə təminatının konstitusion əsasları ........ 39
19. *Orxan İsmayılov.* Müstəqil məhkəmə hakimiyyəti suverenliyin sütunlarından biridir ........ 43
20. *Abbas Rzayev.* "Konstitusiya və Suverenlik İli": Məhkəmə-hüquq islahatlarında səmərəlilik və yeni keyfiyyət mərhələsi ........ 45
21. *Əlizadə Məmmədov.* Konstitusiya Azərbaycan Respublikasının məhkəmələri tərəfindən beynəlxalq hüquq normalarının tətbiqinin hüquqi əsası kimi ........ 50
22. *Zaur Əliyev.* Konstitusiya, suverenlik və insan hüquqları ........ 55

# Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışından – 10 noyabr 1995-ci il



Hörmətli xanımlar və cənablar,
Hörmətli komissiya üzvləri!

Bu gün biz Azərbaycan Respublikasının yeni konstitusiya layihəsinin hazırlanması ilə əlaqədar təşkil olunmuş komissiyanın referendum ərəfəsində son iclasını keçiririk. Komissiya altı aydan çoxdur ki, fəaliyyət göstərir. Altı ay müddətində onun səkkiz iclası olmuşdur. Komissiyanın yaratdığı işçi qrupu daha çox həm iclaslar keçirib, həm də işləyibdir. Ancaq bu iclaslararası vaxtda konstitusiyanın layihəsini bilavasitə hazırlayan şəxslər, onun üzərində işləyənlər və bizim hər birimiz, o cümlədən mən də bu altı ay müddətində yeni komissiyanın layihəsinin yaranması üçün çox vaxt sərf etmişik. Hesab edirəm ki, çəkilən zəhmətin, sərf olunan vaxtın hamısı öz bəhrəsini, nəticəsini verib. Biz addımbaaddım, günbəgün çalışıb müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının layihəsini hazırlayıb xalqa təqdim edə bilmişik.

Konstitusiya komissiyası üzvlərinin hər biri bu işdə fəal iştirak edibdir. Ancaq eyni zamanda mən bu gün qeyd etməliyəm ki, konstitusiya komissiyası tərəfindən yaradılmış işçi qrupu, bu layihənin hazırlanmasına cəlb olunmuş mütəxəssislər, hüquqşünaslar əməli surətdə çox iş görüblər. Burada, Prezident Aparatında bu məsələ ilə məşğul olan əməkdaşlarımız çox işləyiblər. Ali Sovetdə bu məsələ ilə məşğul olan əməkdaşlarımız çox işləyiblər. Bunların

hamısının zəhməti nəticəsində biz, komissiya üzvləri iclaslarda müzakirəni ümumi sözlərlə yox, konkret layihələr, təkliflər əsasında aparmışıq. Ona görə də mən bu gün – artıq konstitusiyanın layihəsi xalqa təqdim olunandan sonra - ümidvaram ki, noyabrın 12-də o, referendumda qəbul olunacaqdır. Bu ərəfədə birinci növbədə konstitusiya komissiyasının üzvlərinə təşəkkürümü bildirirəm. İşçi qrupuna xüsusi təşəkkür etmək istəyirəm. Çünki yenə də deyirəm, onlar əməli işlə məşğul olublar, çox elmi tədqiqatlar, axtarışlar aparıblar. Dünyada mövcud olan konstitusiyaların müddəaları ilə tanış olublar, əlimizdə olan layihəni onlarla müqayisə ediblər, başqa çox işlər görüblər.

Ümumiyyətlə, bu gün hamımız mənəvi rahatlıq hissi keçirə bilərik. Çünki tarixi bir iş görülübdür. Tarixi bir sənəd yaradılıbdır. Bu gün biz ölkəmizin bütün ictimaiyyəti qarşısında, dünya ictimaiyyəti qarşısında deyə bilərik ki, Azərbaycan Respublikasının, xalqımızın tarixində ilk demokratik konstitusiya yaranmasında biz bilavasitə iştirak etmişik və bu layihənin yaranması bizim hamımızın birlikdə məhsuldar əməyimizin, fəaliyyətimizin nəticəsidir.

Komissiya öz işinə başlayarkən mən demişdim ki, bizim üzərimizə böyük məsuliyyət düşür. Biz gələcək nəsillərin qarşısında çox cavabdeh olacağıq, eyni zamanda üzərimizə böyük və şərəfli bir vəzifə düşür. Bu gün mən deyə bilərəm ki, komissiya üzvlərindən heç kəs narahat olmasın. Mən buna tam əminəm. Çünki üzərimizə düşən məsuliyyəti biz vicdanla, xalqımıza, vəzifəmizə sədaqətlə həyata keçirmişik və gördüyümüz işə, xalqa təqdim etdiyimiz layihəyə görə fəxr edə bilərik. Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var. Yəni biz tarixi bir sənədin yaradılmasının iştirakçılarıyıq və bununla fəxr edə bilərik.

Mən şəxsən bu sənədin hazırlanmasına böyük məsuliyyət hissi ilə yanaşmışam. Çünki mənim çoxillik həyat yolumda olan təcrübəm və keçmişdə, bəzi mərhələlərdə ağır sınaqlarda olduğum illərdə qarşımda duran çətinliklərin hamısı məni daha da məsuliyyətli olmaq üçün formalaşdırıbdır. Ona görə də komissiyanın sədri kimi şəxsən mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq.

İndi komissiyanın layihəsini təhlil etməyə ehtiyac yoxdur. Çünki burada, bu salonda olan şəxslərin hər biri bu konstitusiya layihəsini hazırlayanlardır, onun iştirakçılarıdır. Yenə də deyirəm, bu, hamımızın birgə yaradıcılığımızın nəticəsidir, zəhmətimizin məhsuludur.

Ancaq bir neçə məqama toxunmaq istəyirəm. Bizim konstitusiya layihəsinin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın, respublikamızın tarixində bu, ilk, tamamilə sərbəst, müstəqil şəkildə yaranmış konstitusiyadır. Ümumiyyətlə, deyə bilərəm ki, ilk konstitusiyadır. Keçən iclaslarımızda Azərbaycan Respublikasının konstitusiya tarixi haqqında danışıldı. Biz 1921-ci ildə, 1937-ci ildə və 1978-ci ildə qəbul olunmuş konstitusiyalar haqqında danışdıq. Bu konstitusiyalar Sovetlər İttifaqının tərkibində olan, sosialist quruluşuna mənsub olan respublikanın konstitusiyaları olmuş, amma eyni zamanda 70 il müddətində xalqımızın, Azərbaycan Respublikasının tarixi yol keçməsində, yaşamasında və gəlib bu günlərə çatmasında böyük rol oynamışdır. Biz tarixə daim hörmətlə yanaşmalıyıq, keçmişimizi qiymətləndirməliyik. Bu gün

mən o konstitusiyanı yaradanlara və o konstitusiya əsasında on illər boyu Azərbaycanda görülmüş işlərə hörmət və ehtiramımı bildirirəm.

Ancaq hazırda yaranan konstitusiyanın layihəsi indiyə qədər olan bütün konstitusiyaların, qanunların hamısından tamamilə fərqlənir. Ona görə fərqlənir ki, bu, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır. Bu, Birləşmiş Millətlər Təşkilatının üzvü olan, dünya birliyində bərabərhüquqlu yerini tutmuş Azərbaycan dövlətinin Konstitusiyasıdır. Fərqlənir ona görə ki, bu konstitusiya Azərbaycan xalqının iradəsini ifadə edərək, heç bir mərkəzdən idarə olunmadan, bizim, yəni konstitusiya komissiyasının və konstitusiya layihəsi hazırlanmasında bizimlə bərabər iştirak edən geniş miqyaslı vətəndaşlarımızın əməyinin nəticəsidir. Yəni bizim sərbəst, müstəqil fəaliyyətimizin nəticəsidir. Ona görə də bu konstitusiya layihəsi əvvəlki bütün konstitusiyalardan fərqlənir və tarixi əhəmiyyət kəsb edir.

Biz dörd ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Dörd il dövlət müstəqilliyi çərçivəsində yaşayaraq indi nəhayət, biz müstəqil dövlətimizin ilk Konstitusiyasını qəbul edirik. Ona görə də bu layihə fərqlənir və tarixi bir sənəddir. Yenə də deyirəm, konstitusiya layihəsinin müddəaları haqqında danışmağa ehtiyac yoxdur, ancaq əsas məzmunu ondan ibarətdir ki, o, xalqın iradəsini ifadə edir, Azərbaycanın dövlət quruluşunun təsirlərini, hüquqi əsaslarını yaradır, Azərbaycanda dövləti idarəetmənin prinsiplərini əks etdirir, dövlət ilə xalq arasında olan münasibətləri əks etdirir və müstəqil Azərbaycan Respublikasında hüquqi demokratik, dünyəvi dövlətin qurulması üçün bütün hüquqi əsasları yaradır. Onun bütün maddələri xalqın iradəsini ifadə edir. Hakimiyyətin mənbəyi xalqdır - bu əsas anlayış burada bariz şəkildə öz əksini tapıbdır. İdarəetmədə, dövlətçilikdə hakimiyyətin bölgüsü tam demokratik prinsiplər əsasında öz əksini tapıbdır.

Konstitusiyamızda dünya konstitusiya təcrübəsindən çox istifadə olunubdur. Ancaq eyni zamanda bizim konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, xüsusiyyətlərini də əks etdirir. Bunlarla yanaşı, ümumiyyətlə, Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün özünəməxsus prinsipləri əks etdirir. Ona görə də öz məzmun və mənasına görə tam demokratik prinsipləri özündə əks etdirən bir konstitusiyadır. Amma eyni zamanda bu heç bir başqa dövlətin konstitusiyasına bənzəməyən bir konstitusiyadır. Bu bizim özümüzün konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.

Bir də qeyd edirəm ki, burada bütün demokratik prinsiplər öz əksini tapıbdır. Hakimiyyətə dair prinsiplər məlumdur. Konstitusiyanın maddələrinin 48-i insan, vətəndaş azadlıqlarına, hüquqlarına həsr olunmuşdur. Ümumi mətnin üçdə bir hissəsi məhz insan, vətəndaş hüquqlarına, azadlıqlarına həsr edilmişdir. Bu da onu sübut edir ki, bu konstitusiya Azərbaycan vətəndaşlarının azad, sərbəst yaşaması üçün bütün şəraitləri yaradan bir konstitusiyadır. Bu konstitusiyada Azərbaycanın həm dövlət quruculuğu, həm respublikamızın iqtisadiyyatının qurulmasının əsas prinsipləri, hakimiyyətin bölgüsü: qanunvericilik, icra hakimiyyəti, məhkəmə hakimiyyətinin səlahiyyətləri və onların müstəqilliyi, qarşılıqlı fəaliyyəti öz əksini tapıbdır.

Bu konstitusiya layihəsinin ən əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının tam müstəqilliyini təmin edir, ölkəmizin ərazi bütövlüyünü təmin edir, Azərbaycan xalqının hüquqlarının toxunulmazlığını təmin edir, vətəndaşlarımızın hər birinin hüquqlarının qorunmasını təmin edir və Azərbaycan xalqının, respublikamızın bölünməzliyini, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyini təmin edir.

Bax, bütün bunlara görə bu konstitusiya layihəsi çox dəyərli tarixi bir sənəddir və güman edirəm ki, xalqımız da bunu belə qəbul edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında



Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2024-cü il

## Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin

## M Ü R A C İ Ə T İ



Hörmətli tədbir iştirakçıları,

Sizi Beynəlxalq Hakimlər Assosiasiyasının Bakı şəhərində keçirilən 67-ci illik iclasında səmimi-qəlbdən salamlayır, ədalət mühakiməsinin inkişafına və hakimlərin müstəqilliyinin təmin olunmasına həsr edilən bu mötəbər tədbirin işinə uğurlar arzulayıram.

Özündə 100-ə yaxın ölkənin milli hakimlər assosiasiyalarını birləşdirən Beynəlxalq Hakimlər Assosiasiyası yarandığı gündən bəri hakimlərin müstəqilliyinin müdafiəsi, qanunun aliliyinin möhkəmləndirilməsi, ədalət mühakiməsinin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində mühüm təşəbbüslərə imza atmış vacib təsisata çevrilmişdir. Bu gün Beynəlxalq Hakimlər Assosiasiyası eyni zamanda hüquqi dövlət quruculuğunun əsas dayaqlarından biri olan məhkəmə sisteminin təkmilləşdirilməsi üçün beynəlxalq dialoq və əməkdaşlıq məkanı rolunu oynayır.

Azərbaycanın Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasına ev sahibliyi etmək hüququnu qazanması ölkəmizin qlobal nüfuzunun göstəricisi, beynəlxalq hüquq ictimaiyyəti tərəfindən onun məhkəmə-hüquq sisteminə olan inam və etimadının əyani təzahürüdür.

Bu mötəbər tədbirin məhz bu il Azərbaycanda keçirilməsi ölkəmiz və bütün hüquq ictimaiyyətimiz üçün xüsusi rəmzi məna daşıyır. 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan

olunmuşdur. 30 il əvvəl – 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış Konstitusiyada təsbit olunmuş prinsiplər əsasında ölkəmizdə müstəqil, üçpilləli məhkəmə sistemi formalaşmış, hakimiyyət bölgüsü, insan hüquqlarının qorunması və qanunun aliliyi dövlət idarəçiliyinin əsas dayaqlarından birinə çevrilmişdir. Azərbaycan işğal altında olan torpaqlarını azad edərək Əsas Qanunda ali niyyət olaraq bəyan edilmiş ərazi bütövlüyünü və suverenliyini təmin etməyə nail oldu.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu dövlət siyasətimizin strateji prioritetlərindən biridir. İnsan hüquqlarının müdafiəsinin əsas təminatçısı kimi ədalət mühakiməsinin rolunun daha da möhkəmləndirilməsi istiqamətində Azərbaycanda genişmiqyaslı tədbirlər görülür. Ölkəmizdə həyata keçirilən ardıcıl islahatlar nəticəsində məhkəmə fəaliyyətinin səmərəliliyi artırılmış, vətəndaşların ədalət mühakiməsinə müraciət imkanları genişləndirilmiş, hakimlərin müstəqilliyi möhkəmləndirilmişdir. Eyni zamanda informasiya texnologiyalarının və rəqəmsal həllərin tətbiqi ilə məhkəmə idarəçiliyində şəffaflıq və çeviklik təmin olunmuş, vətəndaşların məhkəmələrə əlçatanlığının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar cəmiyyətdə ədalət mühakiməsinə inamın güclənməsinə, məhkəmələrin hüquqi dövlətin əsas sütunlarından biri kimi mövqeyinin möhkəmlənməsinə xidmət etmişdir.

Müasir dövrün çağırışları, qlobal miqyasda baş verən sosial-iqtisadi transformasiya, sürətlə inkişaf edən rəqəmsallaşma, yeni texnologiyaların, xüsusilə də süni intellektin tətbiqi məhkəmə sistemlərindən daim adaptasiya olunmağı, yeni yanaşmaları tətbiq etməyi tələb edir. Bu baxımdan, Beynəlxalq Hakimlər Assosiasiyasının illik iclasları müasir reallıqlar fonunda məhkəmə-hüquq sistemlərinin gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi, onların qarşısında duran çağırışlara cavab verilməsi üçün faydalı təcrübə mübadiləsi və səmərəli dialoq platformasıdır.

Əminəm ki, Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasında aparılacaq fikir mübadiləsi, qəbul ediləcək tövsiyələr və nəticələr hakimlərin müstəqilliyinin möhkəmlənməsinə, ədalət mühakiməsinin keyfiyyətinin artırılmasına, qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinin daha etibarlı təmin olunmasına, eləcə də beynəlxalq həmrəyliyin inkişafına mühüm töhfələr verəcəkdir.

Sizi Bakıda bir daha ürəkdən salamlayır, 67-ci illik iclasın işinə uğurlar arzulayıram.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 oktyabr 2025-ci il



# Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının açılış mərasimi keçirilib



2025-ci il oktyabrın 12-də Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ – International Association of Judges) 67-ci Baş Assambleyasının Plenar İclası öz işinə başlayıb. Assambleyanın Azərbaycanda keçirilməsi ölkəmizin artan nüfuzunun göstəricisi, eyni zamanda Azərbaycanda son illər həyata keçirilmiş mütərəqqi məhkəmə-hüquq islahatlarının nəticəsidir. Xüsusən də məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması istiqamətində son iki ildə aparılmış islahatlar beynəlxalq hakim ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilib.

Assambleyanın açılış mərasimində dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə, hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, süni intellekt obrazlarının təqdimatında ölkəmiz haqqında tanıtım videoçarxı nümayiş etdirilib.

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına müraciətini oxuyub.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycan



öz məhkəmə sistemini demokratiya, qanunçuluq və ədalət prinsipləri əsasında qurmağa başlayıb. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya hazırlanaraq qəbul olunub, orada hakimiyyət bölgüsü, qanunun aliliyi, insan ləyaqətinin təmin edilməsi və məhkəmə hakimiyyətinin müstəqilliyi ifadə edilib. Bu təməllər Prezident İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlarla daha da möhkəmləndirilib. Diqqətə çatdırılıb ki, bu gün bütün dünyada ədalət mühakiməsi ölkələr arasında sıx əməkdaşlıq tələb edir. Bu istiqamətdə Beynəlxalq Hakimlər Assosiasiyasının rolu böyükdür, çünki ədalət mühakiməsinin bütün dünyada daha da təkmilləşdirilməsinə xidmət edir. Bildirilib ki, hazırda dünyanın məhkəmə sistemi qlobal çağırışlarla üz-üzədir və bunlara hazır olmalıdır.

Sonra çıxış edən Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov bildirib ki, məhkəmə hakimiyyəti hər hansı bir cəmiyyətin ən fundamental dəyərlərinin keşiyində dayanan bir qarantdır. Məhkəmə hakimiyyəti insanları səhvlərdən qoruyur, üzərlərinə düşən vəzifənin lazımi şəkildə icrasında istiqamətləndirir. Hər kəs məhkəməyə hörmət etməlidir. Çünki vəzifəsindən və tutduğu mövqedən asılı olmayaraq, insanların hüquqlarının qorunduğunu son nöqtə məhz ədalət mühakiməsini həyata keçirən hakim olacaq.

Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti Duro Sessa isə çıxışında doğru ədalət mühakiməsinin diqqətdən kənarda qalmamalı olduğunu bildirib. Qeyd edilib ki, məhkəmə hakimiyyətinin səsinin hər tərəfdə eşidilməsi üçün anlaşma və etimadın qurulmasında məhz kon-



stitusion strukturların fəaliyyətinin tarazlı şəkildə həyata keçirilməsi önəmlidir. Bütün bu dəyərlər məhkəmə hakimiyyətinin müstəqilliyini qoruyub saxlaya bilməsi baxımından çox vacibdir.

Daha sonra Beynəlxalq Hakimlər Assosiasiyasının "Məhkəmə müstəqilliyi mükafatı"nın təqdimetmə mərasimi keçirilib. Mükafatı Beynəlxalq Hakimlər Assosiasiyasının Baş katibi Giacomo Oberto təqdim edib.

Tədbir bədii hissə ilə davam edib.

Bununla yanaşı, tədbir çərçivəsində "Ədalət mühakiməsi rəmzləri" adlı sərgi təşkil olunub. Sərgidə dünyanın 80 ölkəsindən gətirilmiş 150-yə yaxın hakim, vəkil və dövlət ittihamçısına məxsus cübbələr, ordenlər, döş nişanları, markalar və pul əsginasları nümayiş etdirilib.

***

Oktyabrın 14-də isə Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası çərçivəsində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Məhkəmə hakimiyyəti və hakimiyyətin digər iki qolu arasında münasibətlər" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə - hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev bildirib ki, demokratik cəmiyyətin əsas təməllərindən biri hüquqi dövlətdir. Hüquqi dövlət quruculuğunda isə




hakimiyyətlərin bölgüsü prinsipinin həyata keçirilməsi əsas şərtdir. Müasir konstitusion quruluşun fundamental əsaslarından biri dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə qollarına ayrılması təşkil edir. Bu amil təmərküzləşmənin və hakimiyyətdən sui-istifadənin qarşısını alan, insan və vətəndaş hüquq və azadlıqlarının, qanunun aliliyinin və demokratiyanın təminatına xidmət edən zəruri şərtdir. Qeyd edilib ki, hakimiyyətlərin bölgüsü prinsipinə uyğun olaraq, məhkəmə hakimiyyəti müstəqil hakimiyyət qoludur. Məhkəmələr demokratik və hüquqi dövlətlərdə hüquq və azadlıqların, cəmiyyətin təməl dəyərlərinin qoruyucusudur. Hakimiyyətin heç bir qolu təkbaşına mövcud ola bilməz, onlar digər qollarla vəhdətdə mövcud olur. Bu vəhdət onların səlahiyyətlərinin bölgüsünü təmin etməklə yanaşı, hakimiyyətin balanslı idarəçiliyinin həyata keçirilməsinə şərait yaradır.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında qeyd edib ki, hakimiyyət bölgüsü hər şeydən əvvəl təsisatlar haqqında anlayışdır, səlahiyyətlərin bölündüyü, tarazlandığı və məsuliyyət daşıdığı konstitusion qaydanın yaradılması deməkdir. Həmin strukturun sütunlarından biri kimi məhkəmə hakimiyyəti olduqca mühüm rol oynayır. Onun məqsədi qanunu ədalətlə, qorxu və ya üstünlük olmadan tətbiq etmək, eyni zamanda, icraedici və qanunverici hakimiyyət qolları ilə qarşılıqlı hörmətə əsaslanan konstruktiv dialoqu qorumaqdır. Vurğulanıb ki, ölkəmizdə məhkəmə hakimiyyətinin müstəqilliyinin konstitusion qarantı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində dərin və davamlı islahatlar aparılıb. Bu islahatlar məhkəmələri qanunçuluğun keşikçiləri və ədalət mühakiməsinin yekun hakimi kimi gücləndirib. Diqqətə çatdırılıb ki, texnologiyanın, süni intellektin və sosial



medianın sürətli inkişafı məhkəmələr qarşısında həm yeni imkanlar, həm də risklər yaradır. İqlim dəyişikliyi isə məhkəmə hakimiyyətinin üzərinə yeni və mürəkkəb öhdəliklər qoyur. Bu kontekstdə Beynəlxalq Hakimlər Assosiasiyası son dərəcə mühüm rol oynayır.

Avropa İnsan Haqları Məhkəməsinin hakimi Lətif Hüseynov isə məhkəmə hakimiyyəti ilə digər hakimiyyət qolları arasında münasibətlərin mürəkkəb və aktual məsələ olduğunu vurğulayıb. Qeyd edilib ki, hakimiyyət bölgüsü yalnız funksiyaların ayrılması deyil, eyni zamanda məsuliyyət və balans prinsipidir. Hakimiyyət qolları arasında dominantlıq yarandıqda, bu, xüsusilə məhkəmə hakimiyyətinin müstəqilliyinə zərbə vurur. Məhkəmə hakimiyyətinin rolu əməkdaşlıq və qarşılıqlı anlaşma çərçivəsində fəaliyyət göstərməkdən ibarətdir. Məhkəmə hakimiyyəti digər qollar arasında münasibətləri, dialoq və əməkdaşlığı ehtiva edir.

Beynəlxalq Hakimlər Assosiasiyasının Prezidenti Duro Sessa bildirib ki, hakimlərin müstəqilliyi insan hüquqları və azadlıqların təminatı baxımından əsas şərtdir. Bildirilib ki, məhkəmə qərarları yalnız qanuna əsaslanmalı və heç bir xarici təsirə məruz qalmamalıdır. Əfv məsələləri, eləcə də digər siyasi təsirlər məhkəmə qərarlarına müdaxilə etməməlidir. Avropa Hakimlərinin Məşvərət Şurasının 2015-ci il tarixli rəyində bu mövzuda əhəmiyyətli yanaşmalar ortaya qoyulub. Həmin sənəddə məhkəmə hakimiyyətinin cəmiyyət və digər dövlət institutları qarşısında daşıdığı məsuliyyət ətraflı şəkildə əksini tapıb.

Beynəlxalq Hakimlər Assosiasiyasının Birinci vitse-prezidenti, İbero-Amerika Qrupunun Prezidenti Walter Barone çıxışında ispandilli ölkələrdə məhkəmə sahəsindəki problemlərə toxunub. Qeyd



edilib ki, bu gün ispandilli Amerika ölkələrində məhkəmə hakimiyyətinin müstəqilliyi və əməkdaşlıq balansı çətinliklərlə üzləşir. Hakimiyyət qolları arasında ahəngdarlığın vacibliyi, hər bir qolun səlahiyyət limitlərinin qorunmasının önəmi vurğulanıb.

Beynəlxalq Hakimlər Assosiasiyasının vitse-prezidenti və Afrika Qrupunun Prezidenti Marcel Kouassi çıxışında Afrika təcrübəsindən danışıb. Bildirilib ki, Afrika ölkələrində ədliyyə hakimiyyətinin hesabatı maliyyə müstəqilliyi təmin etmiş şəffaf yanaşmanın bariz nümunəsinə çevrilir. Həmçinin ədliyyə hakimiyyəti tərəfindən təqdim edilən hesabat parlament tərəfindən həyata keçirilən nəzarət mexanizminə töhfə vermiş olur. Afrikada ədliyyə və digər hakimiyyət qolları arasında əlaqələr sürətlə inkişaf etməkdədir. Bu kontekstdə çoxtərəfli əməkdaşlıq prioritet olmalıdır.

BMT-nin hakimlərin və vəkillərin müstəqilliyi üzrə xüsusi nümayəndəsi Margaret Satterthwaite isə konfransa video-müraciətində demokratiya və insan hüquqlarının müdafiəsi üçün üç əsas şərtin – qanunun aliliyi, hakimiyyət bölgüsü və məhkəmə sisteminin müstəqilliyinə hörmətin mövcud olduğunu diqqətə çatdırıb. Bildirilib ki, müstəqil olmayan məhkəmələr siyasi təsirlərə qarşı dayanıqlı ola bilmir, bu isə hüquqların müdafiəsini çətinləşdirir. Ədalət sisteminin siyasi qurumlardan struktur və funksional müstəqilliyinin təmin edilməsi zəruri hesab edilib.

Daha sonra konfrans sual-cavab sessiyası ilə davam etdirilib.

Konfransda həmçinin təltifetmə mərasimi keçirilib. Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov və Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Beynəlxalq Hakimlər Assosiasiyasının fəxri medalı ilə təltif olunublar.

## Beynəlxalq Hakimlər Assosiasiyasının nümayəndə heyəti Ali Məhkəmədə olub




**2025**-ci il oktyabrın 15-də Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ – International Association of Judges) 67-ci Baş Assambleyası çərçivəsində ölkəmizdə səfərdə olan nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Qonaqları salamlayan Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verib, hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Görüşdə Azərbaycanda müasir və müstəqil məhkəmə sisteminin inkişafının, eləcə də bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Sonra qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə iclas zallarını, Plenum zalını, məhkəmənin kitabxanasını və Məhkəmə tarixi muzeyini ziyarət ediblər. Nümayəndə heyəti Azərbaycanda məhkəmə sistemində son illərdə aparılan islahatları yüksək qiymətləndirib.



Sonda qonaqlar xoş təəssüratlarını bölüşüb və xatirə fotosu çəkdiriblər.

*"KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"NƏ HƏSR OLUNMUŞ SİLSİLƏ TƏDBİRLƏR*

## Xankəndidə "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib



2025-ci ilin oktyabrın 31-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib.

Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransda dövlət rəsmiləri, hakimlər, məhkəmə ictimaiyyətinin nümayəndələri, eləcə də universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının dövlətçiliyin möhkəmlənməsi və hüquqi dövlətin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edilib ki, aparılan məqsədyönlü islahatlar məhkəmə-hüquq sisteminin inkişafına, onun müstəqilliyinin və şəffaflığının təmininə xidmət edir. Vurğulanıb ki, elektron məhkəmə sistemlərinin tətbiqi, hakimlərin seçimi mexanizmlərinin təkmilləşdirilməsi və gənclərin hüquq sahəsinə marağının artması bu sahədə mühüm nailiyyətlərdəndir.

Qeyd edilib ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğunun hüquqi bünövrəsini formalaşdırıb. Hazırda ölkəmizdə Konstitusiyanın ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Çıxışda həmçinin məhkəmə sisteminin müasir tələblərə uyğun qurulması, innovativ texnologiyaların tətbiqi və ədalətə inamın möhkəmləndirilməsinin əsas hədəflərdən olduğu vurğulanıb.



Daha sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, Azərbaycan xalqı bu il təkcə Konstitusiyanın qəbulunun ildönümünü deyil, həm də onun prinsiplərinin həyatda bərpası mərhələsini yaşayır. 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiya müstəqil dövlət quruculuğunun, insan hüquq və azadlıqlarının təminatçısına çevrilib. Konstitusiyada təsbit olunmuş ərazi bütövlüyü prinsipi Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə aparılan Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində tam bərpa edilib. Bu qələbə təkcə hərbi deyil, həm də hüquqi və konstitusion ədalətin bərpasıdır. Azad olunmuş ərazilərdə aparılan bərpa və məskunlaşma prosesi, o cümlədən Xankəndidə yaradılan müasir infrastruktur, Konstitusiyanın insan rifahı və ədalət prinsiplərinin təzahürüdür.

Qeyd olunub ki, məhkəmə sistemi Konstitusiyanın həyata keçirilməsinin əsas təminat mexanizmidir və islahatlar ədalətə inamı möhkəmləndirir. Elektron məhkəmə sistemi və infrastruktur islahatları ədalətə çıxış imkanlarını genişləndirib, işğaldan azad olunmuş ərazilərdə yeni məhkəmə strukturlarının yaradılması isə ədalətin bərpasında mühüm rol oynayır. Vurğulanıb ki, “Konstitusiya və Suverenlik İli” dövlətin gücünün ədalətli qanun tətbiqində təcəssüm etdiyini xatırladır və hər bir hüquqşünas bu prinsiplərin qoruyucusu olmalıdır.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxışında bildirib ki, suverenlik mövzusuna həsr olunmuş tədbirin məhz Xankəndidə keçirilməsinin xüsusi mənası var. Çünki məhz Xankəndinin azad edilməsi ilə Azərbaycanın dövlət suverenliyi tam bərpa olunub. Qeyd edilib ki, Qarabağ Universiteti bölgədə məskunlaşma prosesinin önündə gedən ali təhsil müəssisəsi kimi təkcə tədris deyil, həm də elmi-tədqiqat və innovativ həllərin hazırlanması istiqamətində fəaliyyətini genişləndirir. Vurğulanıb ki, hüquqşünaslıq ixtisasında yeni dövrün tələblərinə uyğun tədris planı hazırlanır və universitet savadlı, peşəkar hüquqşünasların yetişdirilməsində maraqlıdır. Həmçinin Qarabağ Universiteti ilə

Ali Məhkəmə arasında əməkdaşlığın vacibliyi bildirilib və qeyd edilib ki, universitetin müəllimləri arasında artıq hakimlər də fəaliyyət göstərirlər.

Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov çıxışında qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulu müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşdiyimiz mürəkkəb dövrə təsadüf edib. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyimizin qorunub saxlanılması xalqımızın xoşbəxtliyidir. Vurğulanıb ki, Konstitusiyamız dünyanın ən məzmunlu və təkmil konstitusiyalarından biridir və o, Azərbaycan xalqının iradəsini əks etdirir. Qeyd edilib ki, Azərbaycan müstəqil dövlət olsa da, suverenliyi yalnız 2020 və 2023-cü illərdə — şəhidlərimizin qanı, xalqımızın birliyi və Ali Baş Komandanın qətiyyəti sayəsində tam bərpa olunub. Çıxışda Konstitusiyamızda təsbit olunan digər müddəalar, qanunun aliliyi, məhkəmə hakimiyyətinin rolundan bəhs olunub.

Bakı Dövlət Universitetinin kafedra müdiri, Məhkəmə-Hüquq Şurasının üzvü Əlizadə Məmmədov Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il Konstitusiyasının əhəmiyyəti və onun beynəlxalq hüquqla əlaqəsindən danışıb. Konstitusiyanın Azərbaycan dövlətinin suverenliyini hüquqi olaraq təsdiqlədiyi və müstəqil dövlətin hüquqi əsaslarını formalaşdırdığı vurğulanıb. Bildirilib ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olaraq qeyd edilməsi, Azərbaycanın suverenliyinin daha da möhkəmləndiyini və ərazi bütövlüyünün bərpasını simvollaşdırır. Qeyd olunub ki, Konstitusiya həmçinin dövlətin daxili hüququ ilə beynəlxalq hüququn qarşılıqlı əlaqəsini tənzimləyən bir sənəd kimi məhkəmələrə beynəlxalq hüquq normalarını tətbiq etmək imkanı verir. Bu proses beynəlxalq hüququn üstünlüyünü və onun Azərbaycan hüququ ilə harmonizasiyasını təmin edir. Konstitusiyanın bəzi maddələri, xüsusən insan hüquqlarına aid olanlar beynəlxalq hüquq normalarının tətbiqi üçün hüquqi çərçivə yaradır.

Xankəndi Şəhər Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü İlkin Abdullayev çıxışında bildirib ki, müstəqilliyin əldə edilməsindən sonra müasir dövrün reallıqlarına cavab verən Konstitusiyanın qəbul olunması zərurət idi. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası dövlət tariximizdə ən əlamətdar hadisələrdən biridir. Vurğulanıb ki, məhkəmə hakimiyyəti cəmiyyətin sabitliyini və davamlı inkişafını təmin edən, eyni zamanda iqtisadi inkişafa stimul verən mühüm institutdur. Cəmiyyətin dinamik inkişafı Konstitusiyanın daim təkmilləşdirilməsini və dövrün çağırışlarına uyğunlaşdırılmasını tələb edir. Məhkəmə sisteminin müasirləşdirilməsi bu baxımdan böyük əhəmiyyət daşıyır.

Sonda Ali Məhkəmənin İnzibati kollegiyasının sədri Xəqani Məmmədov, Kommersiya kollegiyasının sədri Kəmalə Abiyeva və Mülki kollegiyanın sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev tələbələr qarşısında çıxış edərək Ali Məhkəmənin fəaliyyəti və rəhbərlik etdikləri kollegiyaların iş istiqamətləri barədə ətraflı məlumat veriblər. Həmçinin tələbələri maraqlandıran suallar cavablandırılıb.



## Ali Məhkəmənin hakimləri və Aparatının əməkdaşları işğaldan azad edilmiş ərazilərə səfər ediblər




Azərbaycan Respublikası Konstitusiyasının 30-cu ildönümü və Vətən Müharibəsinin 5-ci il dönümü, habelə dövlət suverenliyinin bərpası ilə əlaqədar Ali Məhkəmənin hakimləri və Aparatının əməkdaşlarının işğaldan azad edilmiş ərazilərə səfəri təşkil edilib.

Səfərin məqsədi Qarabağda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, eləcə də regionun tarixi və mədəni irsi ilə tanış olmaq olub.








Səfər çərçivəsində nümayəndə heyəti ilk olaraq Füzuli Beynəlxalq Hava Limanında olub. Qonaqlara hava limanının inşası, onun region üçün strateji əhəmiyyəti və istifadəyə verildiyi gündən etibarən təmin etdiyi logistika imkanları barədə məlumat verilib.

Daha sonra Ali Məhkəmənin nümayəndələri Şuşa şəhərinə səfər ediblər. Onlar Şuşa qalasında, Cıdır düzündə, dahi Azərbaycan şairi, ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində və digər tarixi məkanlarda olublar. Şuşada aparılan bərpa işləri, infrastrukturun yenidən qurulması, mədəni abidələrin restavrasiyası barədə ətraflı məlumat verilib.

Səfərin sonunda hakimlər və əməkdaşlar azad edilmiş ərazilərdə dövlətin həyata keçirdiyi böyük miqyaslı yenidənqurma layihələrinin Azərbaycan dövlətinin gücünü və suverenliyinin bərpa olunmasının əhəmiyyətini bir daha nümayiş etdirdiyini qeyd ediblər.

## Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərov “Danışır təcrübə” layihəsinin qonağı olub




Elm və Təhsil Nazirliyinin “Danışır təcrübə” layihəsi çərçivəsində növbəti görüş baş tutub.

Layihənin budəfəki qonağı tanınmış hüquqşünas, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini Çingiz Əsgərov olub.

Görüşdə Elm və Təhsil Nazirliyinin və tabeliyindəki qurumların əməkdaşları, ümumi təhsil müəssisələrinin rəhbərləri, eləcə də hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr iştirak ediblər.

Çingiz Əsgərov “Konstitusiya və hüququn aliliyi” mövzusunda çıxış edərək iştirakçılara Azərbaycanın məhkəmə sistemi, hüquq islahatlarının mahiyyəti və hüququn insan həyatındakı rolu barədə ətraflı məlumat verib.

“Konstitusiya və Suverenlik İli” çərçivəsində keçirilən görüşdə hüququn insan həyatındakı həlledici rolu, Konstitusiya dəyərlərinin gündəlik qərarlara, vətəndaş münasibətlərinə və idarəetmə proseslərinə təsiri barədə geniş fikir mübadiləsi aparılıb.

Çingiz Əsgərov çıxışında vurğulayıb ki, hüququn aliliyi yalnız məhkəmə sisteminin deyil, həm də bütün dövlət qurumlarının fəaliyyətinin əsas prinsipi olmalıdır. Çingiz Əsgərov əlavə edib ki, Konstitusiyada əksini tapan hüquq normalarının real həyata tətbiqi hüququn aliliyinin ən mühüm göstəricisidir. Hər bir dövlət orqanı qəbul etdiyi qərarlarda vətəndaş maraqlarını və Konstitusiya normalarını əsas götürməlidir. Bu, həm idarəetmənin keyfiyyətinə, həm də cəmiyyətin dövlətə olan inamına birbaşa təsir göstərir.

Qeyd edək ki, layihə çərçivəsində keçirilən görüşlər əməkdaşların davamlı inkişafının təmin edilməsinə, liderlik və idarəetmə bacarıqlarının artırılmasına, eləcə də müasir çağırışlara uyğun kadr potensialının formalaşdırılmasına xidmət edir.

## Ali Məhkəmədə “Konstitusiya və suverenlik ili”nə həsr olunmuş “Açıq qapı” günləri keçirilib





2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqədar Ali Məhkəmədə “Açıq qapı” günləri keçirilib. Tədbirdə şagirdlər və tələbələr iştirak ediblər.

Qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə iclas zallarını, Plenum zalını, məhkəmənin kitabxanasını və Məhkəmə tarixi muzeyini ziyarət ediblər.







Tanışlıq zamanı Ali Məhkəmənin hakimləri iştirakçılara ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, məhkəmələrin dövlət quruluşundakı rolu və qanunvericilik təcrübəsi barədə məlumat verib və iştirakçıların suallarını cavablandırıblar.

## Ali Məhkəmədə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş inklüziv yaradıcılıq sərgisi təşkil olunub





Azərbaycan Respublikasının Ali Məhkəməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq çərçivəsində “Konstitusiya və Suverenlik İli” münasibətilə həssas qruplardan olan şəxslərin əl işlərindən ibarət sərgi təşkil olunub.

Sərgidə Nazirliyin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin təlimçi və benefisiarlarının 80-dək əl işi nümayiş etdirilib. Müxtəlif janrlarda milli dövlətçilik ruhunda tərtib edilmiş əsərlərin mövzusu qanunçuluq, suverenlik, vətənpərvərlik və insan hüquqları kimi dəyərləri əhatə edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparat rəhbəri Cavid Hüseynov diqqətə çatdırıb ki, Prezident cənab İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik



İli" elan olunması ilə bağlı Ali Məhkəmə bir sıra tədbirlər həyata keçirib və bu istiqamətdə işlər hazırda da davam etdirilir. Həmin tədbirlər çərçivəsində keçirilən bu sərgi də hüquqi dövlətin əsas dəyərlərindən biri olan insan amilinə verilən önəmin təzahürüdür. Qeyd edilib ki, məhkəmə hakimiyyəti tərəfindən belə təşəbbüslər daim dəstəklənir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparat rəhbəri Fuad Musayev çıxışında Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyətindən bəhs edib. Mərkəzin inklüziv cəmiyyətin inkişafında rolunu vurğulayan Fuad Musayev bu sərginin də "Konstitusiya və Suverenlik İli"nə töhfə olduğunu qeyd edib.

Burada təqdim edilən əsərlər təkcə yaradıcılıq nümunəsi deyil, həm də əzmin və peşəkarlığın göstəricisi kimi səciyyələndirilib.

Daha sonra Ali Məhkəmənin əməkdaşları, könüllülər, tələbələr və digər şəxslər sərgi ilə tanış olublar.

Tədbir çərçivəsində "Könüllü DOST" proqramının "İnklüziv DOST" altproqramı üzrə Mərkəzdə fəaliyyətə cəlb edilmiş gənclər üçün Ali Məhkəmə tərəfindən "Əlilliyi olan şəxslərin hüquqları" mövzusunda seminar da təşkil edilib.



## "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş ağacəkmə aksiyası keçirilib





"Konstitusiya və Suverenlik İli" çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının təşkilatçılığı ilə Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.







Aksiyada Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılov, həmçinin hər iki qurumun rəhbər heyəti, əməkdaşları və könüllülər iştirak ediblər.

Tədbir çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

# Ali Məhkəmədə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş intellektual yarış keçirilib



Azərbaycan Respublikası Ali Məhkəməsinin əməkdaşları arasında "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.

Tədbirdə Ali Məhkəmə Aparatının müxtəlif struktur bölmələrin nümayəndələri iştirak edərək bilik və məntiq bacarıqlarını sınayıblar. Oyun boyunca iştirakçılar dövlətçilik tarixi, hüquq sistemi və ümumi intellekt mövzularında suallara cavab verərək öz bilik səviyyələrini nümayiş etdiriblər. Rəqabətli və dinamik şəraitdə keçən yarış həm komanda ruhunu, həm də əməkdaşlar arasında qarşılıqlı əlaqəni gücləndirib.

Gərgin mübarizənin nəticəsində "Zəfər" komandası bütün rəqiblərini qabaqlayaraq oyunun qalibi olub.

Sonda qalib komandaya fəxri diplomlar təqdim edilib və tədbir xatirə fotosu ilə yekunlaşıb.

## "Konstitusiya və Suverenlik İli" çərçivəsində Sumqayıt Məhkəmə Kompleksində regional tədbir keçirilib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması çərçivəsində Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurası və Sumqayıt Apellyasiya Məhkəməsinin birgə təşkilatçılığı ilə 2025-ci il oktyabrın 17-də Sumqayıt Məhkəmə Kompleksində tədbir keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Konstitusiya Məhkəməsinin hakimi Otari Qvaladze, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının nümayəndə heyəti, Sumqayıt Apellyasiya Məhkəməsinin və yurisdiksiyasına daxil olan məhkəmələrin hakimləri, eləcə də gənc hüquqşünaslar iştirak ediblər.

Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayev açılış nitqində tədbirin məqsədi barədə məlumat verərək qeyd edib ki, bu görüş "Konstitusiya və Suverenlik İli" çərçivəsində dövlətçiliyimizin hüquqi əsaslarını, milli Konstitusiyamızın yaranma tarixini və bu sahədə əldə edilən nailiyyətləri bir daha nəzərdən keçirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Vurğulanıb ki, 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası dövlət müstəqilliyimizin hüquqi təminatını formalaşdıraraq ölkəmizin inkişafında dönüş nöqtəsinə çevrilib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyü bərpa olunub.

Daha sonra Konstitusiyamızın hazırlanması prosesi və dövlət suverenliyimizin bərpasına dair video-çarx nümayiş olunub.



Tədbirdə çıxış edən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyət istiqamətləri, həyata keçirilən hüquqi islahatların konstitusion əsasları, həmçinin Məhkəmənin qəbul etdiyi qərarların hüquq sisteminin inkişafında və qanunvericilik təcrübəsində rolu barədə ətraflı məlumat verib.

Sədr qeyd edib ki, Konstitusiya nəzarəti hüquqi dövlətin əsas atributlarından biridir və bu nəzarət insan hüquq və azadlıqlarının təminatı və müdafiəsində mühüm əhəmiyyət kəsb edir.

Xaçmaz Rayon Məhkəməsinin hakimi Nərmin Abıyeva, Məhkəmə-Hüquq Şurasının Aparat rəhbərinin müavini Rəşad Həsənli və Ali Məhkəmənin Aparatında sektor müdiri, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent Nazənin Hüseynova çıxışlarında Konstitusiyanın hüquq sistemində ali qüvvəyə malik olmasının əhəmiyyətindən danışıb, məhkəmə fəaliyyətində konstitusion dəyərlərin tətbiqinin ədalət mühakiməsinin keyfiyyətinə birbaşa təsir etdiyini qeyd ediblər.

Tədbir çərçivəsində iştirakçılar Konstitusiya Məhkəməsinin fəaliyyəti, qəbul etdiyi qərarların hüquq sistemində rolu və tətbiqi ilə bağlı suallar ünvanlayıb, mövzu ətrafında fikir mübadiləsi aparıblar.

Sonda belə görüşlərin hüquq ictimaiyyəti, o cümlədən gənc hüquqşünaslar arasında konstitusion dəyərlərin təbliği, hüquqi biliklərin artırılması və məhkəmə sistemində peşəkar yanaşmanın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.

## Gəncə Şəhər Məhkəməsində 2025-ci il “Konstitusiya və Suverenlik İli” çərçivəsində regional seminar keçirilib




Azərbaycan Respublikasının Ali Məhkəməsi və Məhkəmə-Hüquq Şurası tərəfindən 2025-ci il “Konstitusiya və Suverenlik İli” çərçivəsində Gəncə şəhərində 50-dək məhkəmə aparatı işçisinin iştirakı ilə regional seminar təşkil edilib.

Tədbirdən əvvəl seminar iştirakçıları 27 Sentyabr – Anım Günü ilə bağlı Vətən müharibəsində canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Çıxış edən Gəncə Şəhər Məhkəməsinin sədri Xəqani Tağıyev ölkəmizdə “Konstitusiya və Suverenlik İli”nin elan olunmasının dövlətçilik ənənələrimizin daha da inkişafına mühüm töhfə verdiyini bildirib. Seminarın moderatoru, Məhkəmə-Hüquq Şurasının Aparat rəhbərinin müavini Rəşad Həsənli tədbirin hüquqi maarifləndirmə və hüquq mədəniyyətinin yüksəldilməsi baxımından əhəmiyyətini qeyd edib.

Sonra Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayev – “Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ilk milli Konstitusiyamız siyasi-hüquqi akt və tarixi sənəd kimi”, Ədliyyə Akademiyasının kafedra müdiri Mətanət Əsgərova – “Suverenliyə gedən şərəfli yol: Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni və qüdrətli Azərbaycan” mövzularında məruzələr ediblər.

Seminarda Ali Məhkəmə Aparatının sektor müdiri Nazənin Hüseynova və böyük məsləhətçi Rəşad Nəsibov çıxış ediblər, məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Şəki Apellyasiya Məhkəməsində “Konstitusiya və Suverenlik İli” ilə bağlı regional tədbir keçirilib



2025-ci il noyabrın 26-da Şəki Məhkəmə Kompleksində Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı “Suverenliyimizin tam bərpası Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi yolun, milli birliyimizin və müəllifi olduğu Konstitusiyamızın dayanıqlığının parlaq təcəssümüdür” mövzusunda regional tədbir keçirilib.

Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurası və Şəki Apellyasiya Məhkəməsinin birgə təşkilatçılığı ilə keçirilən tədbir zamanı əvvəlcə dövlət suverenliyimizin bərpasına dair videoçarx nümayiş olunub.

Şəki Apellyasiya Məhkəməsinin sədri Nuru Quliyev iclası giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Qeyd edilib ki, bu il Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbənin 5-ci ildönümünü nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilib.

Diqqətə çatdırılıb ki, dövlətimizin müstəqillik tarixinin mühüm hadisələrindən olan əsas Qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanıb. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açıb. Hazırda dövlətimiz müstəqillik tarixinin ən qüdrətli, yüksək inkişaf mərhələsini yaşayır. Müstəqil dövlətçilik tariximizin ən mühüm hadisəsi, şübhəsiz ki, tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi oldu. 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi müasir tariximizin ən parlaq səhifəsi olmaqla, Azərbaycan xalqının qürur mənbəyidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti dövlətimizin zəfərlərinin davamlılığını təmin edir. Otuz ilə yaxın işğal altında qalan əzəli Azərbaycan torpaqlarını geri qaytaran Müzəffər Ali Baş Komandanın zəfər müjdələri hər bir azərbaycanlını qürurlandırdı, xalqımızın yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edildi. Sərəncama əsasən, 2023-cü il sentyabrın 20-



də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında "Dövlət Suverenliyi Günü" kimi qeyd edilməsi qərara alındı.

Sonra Məhkəmə-Hüquq Şurasının Aparat rəhbərinin müavini Rəşad Həsənli çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ölkəmizin dövlətçilik konsepsiyasının möhkəmləndirilməsi, milli ideoloji əsasların gücləndirilməsi və konstitusion dəyərlərin cəmiyyət həyatında daha geniş təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Bu mühüm qərar müstəqil Azərbaycan dövlətinin keçdiyi tarixi yolun, müasir dövlətçilik düşüncəsinin və milli suverenlik fəlsəfəsinin əhəmiyyətini bir daha vurğulamaqdadır.

Həmçinin qeyd edilib ki, "Konstitusiya və Suverenlik İli"nin hədəfləri dövlət idarəçiliyinin bütün istiqamətlərində olduğu kimi, məhkəmə-hüquq sahəsində də strateji inkişafın əsas çərçivəsini müəyyən edir. Qarşıya qoyulan tapşırıqların icrası dövlət suverenliyinin möhkəmləndirilməsi, hüquq sistemimizin beynəlxalq standartlara tam uyğunlaşdırılması və məhkəmə hakimiyyətinin institusional dayanıqlığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Bundan sonra Şəki Apellyasiya Məhkəməsinin hakimi Akif Eyvazov "Suverenliyimizin tam bərpası Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi yolun, milli birliyimizin və müəllifi olduğu Konstitusiyamızın dayanıqlığının parlaq təcəssümüdür" mövzusunda çıxış edib.

Daha sonra Ali Məhkəmənin Məhkəmə təcrübəsinin təhlili şöbəsinin mülki və kommersiya işləri üzrə məhkəmə təcrübəsi sektorunun müdiri Nazənin Hüseynova, Şəki Apellyasiya Məhkəməsinin sədr müavini Ələddin Məcidov, "Vətən müharibəsi" iştirakçısı, Şəki Apellyasiya Məhkəməsinin məsləhətçisi Habil Bağırov və Yevlax Rayon Məhkəməsinin sədri Ruslan Əlizadə mövzu ətrafında çıxış ediblər.

## Şirvanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində regional seminar keçirilib




2025-ci il iyunun 13-də Şirvan Apellyasiya Məhkəməsinin inzibati binasında Azərbaycan Respublikasının Ali Məhkəməsi və Məhkəmə-Hüquq Şurası tərəfindən "Konstitusiya və Suverenlik İli" çərçivəsində seminar təşkil olunub.

Məhkəmə-Hüquq Şurasının Aparat rəhbərinin müavini Rəşad Həsənlinin moderatoluğu ilə keçirilən seminarda Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayev "Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ilk milli Konstitusiyamız siyasi-hüquqi akt və tarixi sənəd kimi", Ədliyyə Akademiyasının kafedra müdiri, h.e.d. Mətanət Əsgərova "Zəfərdən suverenliyə gedən yol: Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni və qüdrətli Azərbaycan" mövzusunda məruzələr ediblər.

Seminarda həmçinin Ali Məhkəmənin Cinayət, inzibati və plenum işlərinin təşkili şöbəsinin müdir müavini, h.f.d. Vüqar Bayramlı, Məhkəmə təcrübəsinin təhlili şöbəsinin mülki işlər məhkəmə təcrübəsi sektorunun müdiri, h.f.d. Nazənin Hüseynova çıxış ediblər.

Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tədbirdə Şirvan Apellyasiya Məhkəməsinin Aparatının və məhkəmənin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələrinin əməkdaşları iştirak ediblər.

MƏQALƏLƏR

# Azərbaycan Respublikasında Konstitusiya nəzarəti sisteminin formalaşması və inkişafı



**Bəhman Qəribov,**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi**

Müasir dövlətin ayrılmaz atributlarından biri kimi dəyərləndirilən Konstitusiya dövlətin bir sıra quruluş parametrlərini, daxili siyasətini, insan hüquq və azadlıqlarının tanınması müdafiəsinin mühüm aspektlərini ehtiva edir. Bu baxımdan Konstitusiya özünün hüquqi xassələri və əsas xüsusiyyətləri müqabilində siyasi hüquqi "sənəd" olmaqla publik hakimiyyətin təşkilati əsaslarını, şəxsin hüquqi statusunu, hakimiyyətlərin bölünməsi prinsipinə əsaslanmaqla hakimiyyət şaxələrinin səlahiyyətləri dairəsini və bir sıra mühüm məsələləri nizamlamaqla iyeyarxiya müstəvisində digər normativ hüquqi aktlara münasibətdə ən yüksək mövqeyə malikdir.

Bu mənada Konstitusiya cəmiyyətin, dövlətin ali qanunu olmaqla dövlət quruluşunun əsaslarını, hakimiyyət və idarəetmə prinsiplərini, hakimiyyət və idarəetmə orqanlarının sistemini, o cümlədən ictimai quruluşun əsaslarını, vətəndaş cəmiyyətinin yaranmasının fundamental prinsiplərini cəmləşdirir.

Məlumdur ki, Azərbaycan 20-ci əsrin 90-cı illərində mürəkkəb bir tarixi yol keçməklə özünün dövlət müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bərpa etmişdir. Məhz bundan sonra Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğuna başlanmış, vətəndaş cəmiyyətinin formalaşması və inkişafı mümkün olmuşdur.

Həmin dövrlərdə Azərbaycan Respublikasının Konstitusiyası və müxtəlif ictimai münasibətlər sistemində zərurət yaranmış hüquq münasibətlərini nizamlayan mühüm qanunvericilik aktlarının qəbul olunması ilə ölkəmizin ümumbəşəri dəyərlərə, hüquqi dövlət ideallarına, insan hüquq və azadlıqlarının tanınması və təmin edilməsinə, ədalət və humanizm prinsiplərinə sadiqliyi nümayiş etdirilirdi.

Ən əsas məqamlardan da biri ondan ibarət idi ki, Konstitusiyamızda insan hüquq və azadlıqlarına daha geniş yer verilməklə onların etibarlı müdafiəsinin təminatını da ehtiva edir.

Qeyd olunmalıdır ki, 1995-ci il noyabrın 12-də referendumla qəbul edilən və 1995-ci il noyabrın 27-də qüvvəyə minmiş Konstitusiyada məhkəmə hakimiyyətindən bəhs edən VII fəsildə əsaslı yeniliklərdən biri kimi də Azərbaycan hüquq sistemində bir orqan kimi əvvəllər mövcud olmayan təsisat kimi Konstitusiya nəzarəti orqanı səlahiyyətini həyata keçirən Konstitusiya Məhkəməsi idi.

Konstitusiya nəzarətinin həyata keçirilməsinin əsası ilk növbədə hüququn aliliyinin təmin

olunmasına, hakimiyyət şaxələri arasında tarazlaşdırılmanın, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət edir.

İlk Konstitusiya məhkəmələri Avropada (Avstriya, Çexoslovakiya, Almaniya) keçən əsrin 20-ci illərində yaranmış, 2-ci dünya müharibəsi başa çatdıqdan sonra Konstitusiya ədalət mühakiməsinin yerinə yetirilməsi məqsədilə Konstitusiya məhkəmələrinin yaradılması tendensiyası digər Avropa dövlətlərinə də sirayət etməklə daha da güclənmişdir.

Bununla belə qeyd olunmalıdır ki, bir sıra Avropa dövlətlərində anqlo-sakson hüquq sisteminin və ənənələrinin təsiri nəticəsində konstitusiya nəzarəti orqanı funksiyasını ayrıca yaradılan Konstitusiya məhkəmələri deyil, Ali məhkəmələr həyata keçirir. Buna misal olaraq İsveçrəni, Estoniyanı, Norveçi və s. dövlətləri göstərmək olar.

Ümumiyyətlə, müasir dövrdə də qlobal struktur dəyişiklikləri fonunda onların həm milli, həm də beynəlxalq hüquqa göstərdiyi çoxşaxəli təsir konstitusiya nəzarəti orqanlarının fəaliyyətinin zəruriliyini ön plana çıxarır.

Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Konstitusiyasında Konstitusiya Məhkəməsinin dövlət orqanları sistemindəki yeri hakimiyyətlərin bölünməsi prinsipindən irəli gəlməklə müəyyən edilmiş, səlahiyyətlərin həddi və məzmunu konkretləşdirilmişdir.

Konstitusiya Məhkəməsi öz fəaliyyətinə “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının 1997-ci il 21 oktyabr tarixli Qanunu əsasında, Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 14 iyul tarixli Qərarı ilə onun hakimlərinin təyin edilməsindən 4 gün sonra Konstitusiya Məhkəməsinin müstəqilliyinin təmin edilməsi və Konstitusiya Məhkəməsi hakimlərinin statusuna dair Ümummilli Lider Heydər Əliyevin imzaladığı fərmanla rəsmi fəaliyyətə başlamışdır.

Əvvəldə də qeyd olunduğu kimi Konstitusiya Məhkəməsinin səlahiyyətləri həm Konstitusiya, həm də “Konstitusiya Məhkəməsi haqqında” Qanunun normalarından irəli gəlir.

“Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun Konstitusiya Məhkəməsinin təyinatı və əsas məqsədlərindən bəhs edən 1-ci maddəsində göstərilir ki, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır, əsas məqsədləri Konstitusiyanın aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlarını müdafiə etməkdir.

Konstitusiyanın 130-cu maddəsində göstərilən səlahiyyətlər içərisində norma nəzarətinin həyata keçirilməsi müəyyənləşdirilmişdir. Belə ki, adı çəkilən maddənin III hissəsinin 1-7-ci bəndlərində nəzərdə tutulan hüquqi aktların Konstitusiyaya və ya iyeyarxiya sistemində daha üstün hüquqi aktla uyğunluğu məsələsinin aşkara çıxarılması ilə bağlı səlahiyyətini yerinə yetirərkən əsas məqsəd Konstitusiyanın aliliyinin təmin olunmasına xidmət edir. Bu zaman yoxlamanın predmetini təşkil edən hüquqi aktın tam və ya ayrı-ayrı hissələrinin onun özündən üstün olan hüquqi aktla uyğunsuzluğu müəyyənləşdirildikdə bu akt (və ya onun uyğunsuzluq müəyyənləşdirilmiş hissəsi) qüvvədən düşmüş hesab edilir və Azərbaycan Respublikasının ərazisində tətbiq olunmur.

Konstitusiyanın 130-cu maddəsinə əsasən Konstitusiya Məhkəməsinin səlahiyyətləri sırasında həmçinin Konstitusiya və qanunların şərh olunması da vardır. Bu səlahiyyəti həyata keçirərkən normativ tənzimləmədəki boşluqlar, qeyri-müəyyənliklər

normanın məzmunundan irəli gəlməklə ikili məna yozumları aradan qaldırılır. Bu isə öz növbəsində normativ nizamlamanın məntiqliliyinin dəqiq axarına normativ müəyyənliyinə, hüquq münasibətləri iştirakçılarının tənzimləməni nəzərdə tutan hüquqi akta əminliyi və etimadına xidmət edir.

Normativ hüquqi aktların şərhi prosesində belə aktın (normanın) digər normalarla asılılığı, bağlılığı üzə çıxarılır. Müvafiq tənzimləmənin həqiqi mahiyyətinin hüquqi təsviri verilir. Bu isə konkret hüquq tətbiqetmə praktikasının formalaşması üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının tanınması və təmin olunması ən ümdə məsələlərdən biridir. Konstitusiyanın 12-ci maddəsində də təsbit olunmuşdur ki, insan hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Azərbaycan Respublikası 2002-ci il aprelin 15-də Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmuş və bundan sonra insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud mexanizmlərin daha da təkmilləşdirilməsi və Konstitusiya islahatlarının keçirilməsi zərurəti yaranmışdır.

Ümumilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci il avqustun 24-də keçirilən referendumla Konstitusiyanın 130-cu maddəsinə də dəyişiklik edilmiş, bu maddəyə əlavə olunan V, VI və VII hissələrlə Konstitusiya ədalət mühakiməsi orqanına müraciət etmək hüququ olan subyektlərin dairəsi genişləndirilərək Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanının), məhkəmələrin və fiziki və hüquqi şəxslərin müvafiq olaraq sorğu, müraciət və şikayət vermək hüquqları tanınmışdır.

Konstitusiya Məhkəməsinin səlahiyyətləri sırasında digərləri ilə yanaşı, qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin nəticələrinin yoxlanılması və təsdiqi, yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmən elan edilməsi kimi səlahiyyətləri də mövcuddur.

Yarandığı gündən Konstitusiya Məhkəməsi tərəfindən hüququn müxtəlif sahələri üzrə çoxsaylı qərarlar qəbul edilmişdir. Bu qərarlardakı hüquqi mövqelər milli hüquq sisteminin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlərdəki ideya və prinsipləri Avropa Məhkəməsinin presedentləri baxımından daha da təkmilləşməsinə və onun inkişafına böyük təsir göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır (Konstitusiyanın 8-ci maddəsinin IV hissəsi). Konstitusiya Məhkəməsinin fəaliyyətini də daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu məhkəmənin 20 illik yubileyi münasibətilə göndərdiyi təbrik məktubunda qeyd etmişdir ki, Konstitusiya Məhkəməsi ali konstitusiya ədalət mühakiməsi orqanı kimi səmərəli fəaliyyəti ilə Azərbaycan Respublikasının hüquq sisteminin sabitliyinin təmin edilməsində, onun davamlı inkişafında, milli qanunvericiliyimizin müasir dünya hüquq sisteminə inteqrasiyasında, cəmiyyətdə hüquq mədəniyyətinin daha da yüksəldilməsində əhəmiyyətli rol oynamış, insan hüquqlarının etibarlı təminatçısına çevrilmişdir.

Beləliklə, Konstitusiya Məhkəməsi ədalət mühakiməsini həyata keçirməklə insan hüquq və azadlıqlarının tam və səmərəli müdafiəsi də daxil olmaqla özünəməxsus xüsusi yer tutur.

# Azərbaycan Respublikasında insan və vətəndaşın hüquq və azadlıqlarının inzibati məhkəmə təminatının konstitusion əsasları

**2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi mühüm tarixi və siyasi əhəmiyyət daşıyır. Bu qərar Azərbaycanın dövlətçilik tarixində xüsusi mərhələni ifadə edir və həm hüquqi, həm də milli-mənəvi baxımdan strateji mahiyyətə malikdir. Azərbaycan Respublikasının Konstitusiyası ölkənin ali hüquqi aktı, dövlətin siyasi və hüquqi sisteminin əsasını təşkil edir. 1995-ci ildə qəbul edilən Konstitusiya xalqın suveren iradəsinin təcəssümü olmaqla, demokratik prinsipləri, insan hüquq və azadlıqlarını, dövlətin quruluşunun əsaslarını müəyyən etmişdir.**



**Elvin Əliyev,**
**Bakı Apellyasiya Məhkəməsinin hakimi**

Azərbaycan Respublikasının qanunvericilik sistemində insan və vətəndaşın hüquq və azadlıqlarının təmini və müdafiəsi rəhbər müddəa kimi qəbul edilir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin birinci hissəsinə uyğun olaraq insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

Beynəlxalq hüquq sistemində insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi və təminatının 2 sistemi fərqləndirilir. Bunlardan birincisi, dövlətdaxili müdafiə mexanizmidir ki, bu mexanizm insan və vətəndaşın hüquqlarının həm məhkəmə, həm də digər orqanlar tərəfindən təmin edilməsini əhatə etməklə daha əlçatan və ilkin sistemdir. Beylnəlxalq səviyyədə müdafiə isə beynəlxalq təşkilatlar və beynəlxalq məhkəmə qurumları tərəfindən həyata keçirilməklə bir çox hallarda dövlətdaxili müdafiə mexanizmlərinin insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsini istənilən səviyyədə təmin edə bilmədiyi hallarda istifadə edilən mexanizmdir.

Müstəqilliyin ilk illərində hüquqi müdafiə mexanizmi kimi yalnız dövlətdaxili müdafiə vasitələri çıxış edirdi, lakin 2002-ci il aprelin 15-də Azərbaycan Respublikası Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiya edildi. Həmin konvensiyasının 2-ci bölməsi Avropa İnsan Hüquqları Məhkəməsinə həsr olunmuşdur. Azərbaycan Respublikası Avropa İnsan hüquqları Məhkəməsini yurisdiksiyasını qəbul etməklə ölkə vətəndaşlarının hüquqlarının müdafiəsinin beynəlxalq məhkəmə vasitəsi ilə həyata keçirilməsinə də şərait yaratdı. Beləliklə, Azərbaycan Respublikasında insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsini və təminatının aşağıdakı mexanizmləri formalaşdı:

1. məhkəmə vasitəsilə müdafiə mexanizmi
2. dövlət orqanları vasitəsi ilə müdafiə mexanizmi
3. beynəlxalq təşkilatlar vasitəsi ilə müdafiə mexanizmi (7, s. 126)

Qeyd edilən müdafiə mexanizmləri içərisində məhkəmə vasitəsilə müdafiə mexanizmi insan və vətəndaşın hüquq və azadlıqlarının ən əsas, əlçatan və effektiv müdafiə mexanizmi hesab edilir. Məhkəmələr tərəfindən insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi ədalət mühakiməsinin həyata keçirilməsi vasitəsi ilə təmin edilir.

Azərbaycan Respublikasının məhkəmə sistemi 3 pilləli olmaqla ədalət mühakiməsi mülki və cinayət və inzibati prosessual icraatlar vasitəsi ilə həyata keçirilir.

Azərbaycan Respublikasında qeyd edilən icraatlardan əlavə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən həyata keçirilən konstitusiya məhkəmə icraatı da mövcuddur ki, bu icraat qanunvericilikdə nəzərdə tutulmuş konkret hallar üzrə və qanunvericiliyin normalarına uyğun şəkildə həyata keçirilir.

Yuxarıda qeyd edilən digər icraat növlərindən fərqli olaraq Azərbaycan Respublikasının qanunvericiliyində insan və vətəndaşların hüquq və azadlıqlarının inzibati prosessual qaydada müdafiəsi institutu təsbit edilmişdir. İnzibati prosessual qaydasında icraat dövlət orqanlarının hərəkət və hərəkətsizliklərindən vətəndaşların müdafiəsinin təmin edilməsi ilə bağlı həyata keçirilən prosessual fəaliyyətdir. Qeyd etmək lazımdır ki, insan və vətəndaşın hüquq və azadlıqlarının inzibati icraat qaydasında, yəni icra hakimiyyətinə daxil olan orqanlar vasitəsilə müdafiəsi mexanizmi də mövcuddur. Qanunvericilikdə inzibati orqanın (vəzifəli şəxsin) hərəkət və hərəkətsizliyindən yuxarı inzibati orqana (vəzifəli şəxsə) şikayət verilməsi nəzərdə tutulur. Bu zaman fiziki və ya hüquqi şəxsin ərizəsi, inzibati orqanın təşəbbüsü və ya qanunla nəzərdə tutulmuş hallarda inzibati orqanın inzibati aktı qəbul etmək vəzifəsi və ya inzibati aktdan şikayət verildiyi halda, inzibati şikayət kimi əsaslardan biri olduqda "İnzibati icraat haqqında" qanunda nəzərdə tutulmuş qaydada inzibati icraat başlanılır. İnzibati icraat inzibati orqanlarda həyata keçirilir. Lakin bu müdafiə mexanizmi bir çox hallarda vətəndaşların hüquq və azadlıqlarının təminatının istənilən səviyyədə həyata keçirilməsini təmin edə bilmir. Bu səbəbdən inzibati prosessual icraat məhkəmələr vasitəsi ilə həyata keçirilən icraat mexanizmi müəyyən edilmişdir. Azərbaycan Respublikasında inzibati prossesual icraatı aşağıdakı məhkəmələr həyata keçirir:

1. İnzibati məhkəmələr-birinci instansiya məhkəməsi qismində Azərbaycan Respublikası İnzibati Prosesual Məcəlləsinin 2.2.1-2.2.8-ci maddələrində göstərilmiş aşağıdakı iddialara baxır:

– şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair iddialara (mübahisələndirmə haqqında iddia);
– inzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi ilə bağlı müvafiq öhdəliyin qoyulmasına dair iddialara və ya inzibati orqanın hərəkətsizliyindən müdafiəyə dair iddialara (məcburetmə haqqında iddia);
– inzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətlərin edilməsinə dair iddialara (öhdəliyin icrası haqqında iddia);
– inzibati orqanın inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan və bilavasitə şəxsin hüquq və azadlıqlarını pozan qanunsuz müdaxiləsindən müdafiəyə dair iddialara (müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia);
– inzibati hüquq münasibətinin mövcud olmasına və ya olmamasına, habelə inzibati aktın etibarsız sayılmasına dair iddialara (müəyyən etmə və ya tanınma haqqında iddia);
– bələdiyyələrin inzibati nəzarət orqanlarının hərəkətlərinə qarşı və ya inzibati nəzarət orqanlarının bələdiyyələrə qarşı iddialarına.

2. Apellyasiya məhkəmələrinin İnzibati Kollegiyaları – bu məhkəmələr apellyasiya instansiyası qismində inzibati məhkəmələrin qərar və qərardadlarından verilmiş şikayətləri üzrə icraatı həyata keçirir.

3. Azərbaycan Respublikasının Ali Məhkəməsinin İnzibati Kollegiyası – kassasiya instansiyası qismində apellyasiya məhkəməsinin inzibati kollegiyasının qərar və qərardadlarından verilmiş şikayətləri üzrə icraatı həyata keçirir.

Bütün bu qeyd edilən məhkəmə sistemi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və digər qanunvericilik aktlarını rəhbər tutur. Bu qanunvericilik aktları insan və vətəndaşın hüquq və azadlıqlarının dairəsini və müdafiə mexanizmini müəyyən edir. Bu sırada xüsusi əhəmiyyət kəsb edən Azərbaycan Respublikasının Konstitusiyasını ayrıca şərh etmək lazımdır.

Azərbaycan Respublikasının Konstitusiyasını səciyyələndirən mühüm cəhətlərdən biri insan və vətəndaş hüquqlarının kifayət qədər əhatəli şəkildə təsbit olunması və bu hüquqları tanımaq, müdafiə və təmin etməyin isə dövlətin əsas məqsədi olduğunun elan edilməsidir. Məhz Azərbaycan Respublikası Konstitusiyasının 24-71-ci maddələrində insan və vətəndaşın hüquq və azadlıqları əks olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən insan və vətəndaşın hüquq və azadlıqlarının birbaşa qüvvədə olduğu göstərilir. Konstitusiyanın heç bir norması insan və vətəndaşın hüquq və azadlıqlarının ləğvinə yönəlmiş müddəa kimi təfsir edilə bilməz.

Konstitusiyanın qəbulundan sonra ölkədə həyata keçirilən çoxşaxəli islahatlar da məhz insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli təmini məqsədinə yönəlmiş, bu prosesdə vətəndaş cəmiyyəti təsisatlarının rolu genişləndirilmişdir.

İnsan hüquq və azadlıqlarının inzibati prosessual təminatının konstitusion əsasları dedikdə, ilk növbədə Konstitusiyanın 60-cı maddəsini qeyd etmək lazımdır. Həmin maddəyə əsasən hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir, hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılmalıdır, hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır və hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər. Göründüyü kimi bu maddə nəinki inzibati prosessual icraata, ümumilikdə bütün məhkəmə icraatlarına aid olub, Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi ilə oxşarlıq təşkil edir.

Azərbaycan Respublikası Kosntitusiyasının 127-ci maddəsi Azərbaycan Respublikası ərazisində ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsip və şərtlərini göstərir. Həmin prinsip və şərtlər Azərbaycan Respublikasında məhkəmə fəaliyyətinin, habelə insan və vətəndaşın hüquq və azadlıqlarının məhkəmə təminatının əsasları qismində çıxış edir. Həmin maddəyə əsasən hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Bu maddədə göstərilənlərlə bağlı aşağıdakıları qeyd etmək məqsədəmüvafiqdir.

İşlərə qərəzsiz və obyektiv baxılması dedikdə, hakimin qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə edə bilməməsi və yanlız sübutlar əsasında mühakimənin həyata keçirilməsi anlaşılır. Məhz bu məsələ inzibati prosesdə xüsusilə əhəmiyyət kəsb edir. Belə ki, inzibati proses zamanı tərəflərdən biri kimi dövlət orqanı çıxış edir. İnzibati prosessual icraatın inzibati icraatdan üstünlüklərindən biri də hərəkət və ya hərəkətsizlik edən orqanla şikayətə baxan instansiyanın hər hansı bir tabelik və ya qarşılıqlı asılılıq münasibətinin olmamasıdır. Məhz bu səbəb inzibati prosessual icraatda insan və vətəndaşın hüquqlarının daha yaxşı təmininə xidmət edir.

Bu nüansa diqqət yetirərkən hakimlərin və məhkəmənin müstəqilliyinin təmini məsələsi bariz şəkildə qarşımıza çıxır. Söz yox ki, müstəqil olmayan və dövlət orqanlarından hər hansı asılılığı olan məhkəmə həmin orqanların hərəkət və ya hərəkətsizliyini mühakimə edə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsi bu məsələni də qeyd etmişdir. Belə ki, həmin maddənin üçüncü hissəsinə əsasən hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, hədə və müdaxilə edilməsi yolverilməzdir. Eyni məsələ İnzibati Prosessual Məcəllənin 10-cu maddəsində də öz əksini tapmışdır. Bu normalar Azərbaycan Respublikasının dövlət quruluşunun əsasını təşkil edən hakimiyyətlərin bölgüsü, qarşılıqlı çəkindirmə və tarazlıq prinsipləri vasitəsilə təmin edilir. Belə ki, Azərbaycan Respublikasında məhkəmə hakimiyyəti hakimiyyətin üç müstəqil qolundan biridir və onun formalaşmasında hakimiyyətin digər iki qolunun hər ikisi iştirak edir.

İnzibati prosessual icraatda insan və vətəndaşın hüquq və azadlıqlarının təminatının başqa bir mühüm aspekti tərəflərin hüquq bərabərliyinin təmin edilməsidir. Cəmiyyətin demokratik inkişafı dövlətin və onun orqanlarının insan və vətəndaşın

iradəsi üzərində sözsüz üstünlüyünün aradan qalxması və bu tərəflərin məhkəmədə bərabər hüquqlu əsaslarla iştirakına gətirib çıxarmışdır. İnzibati prosessual icraat zamanı adi bir vətəndaşla dövlət orqanı eyni hüquqi vəziyyətdə çıxış edir. Məhkəmədə iştirak edən tərəflərin hüquq bərabərliyi Azərbaycan Respublikası Konstitusiyasının 127-ci, İnzibati Prosesual Məcəlləsinin 11-ci maddələrində öz əksini tapmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi insan və vətəndaşın hüquq və azadlıqlarının ən ali səviyyədə təmin edilməsi Azərbaycan dövlətinin əsas vəzifəsi kimi təsbit edilmişdir. Bu çərçivədə xüsusilə diqqət çəkən nüanslardan biri də məhkəmənin yardım etmək vəzifəsidir. Bir çox hallarda vətəndaşların böyük hissəsinin kifayət qədər geniş hüquqi biliklərə malik olmamasını nəzərə alsaq, bu vəzifənin insan və vətəndaşın hüquq və azadlıqlarının təmin olunmasındakı əhəmiyyəti daha çox nəzərə çarpır. Məhkəmənin yardım etmək vəzifəsi dedikdə, o nəzərdə tutulur ki, məhkəmə qaldırılan iddialarda yol verilən formal xətaların aradan qaldırılmasında, aydın olmayan iddia tələblərinin dəqiqləşdirilməsində, yanlış iddia növlərinin münasibləri ilə əvəz olunmasında, natamam faktiki məlumatların tamamlanmasında, eləcə də işin hallarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi baxımından əhəmiyyət kəsb edən izahatların təqdim olunmasında proses iştirakçılarına yardım etməyə borcludur. Bu vəzifə sayəsində vətəndaşların zəruri bilikləri olmadığı hallarda belə hüquqi yardım üçün maliyyə vəsaiti sərf etmədən məhkəmə tərəfindən zəruri biliklərlə və hüquqi yardımla təmin olunurlar.

İnzibati prosessual fəaliyyətdə insan və vətəndaşın hüquq və azadlıqlarının konstitusion təminatlarından biri də çəkişmə prinsipidir. Bu prinsip Azərbaycan Konstitusiyanın 127-ci, İnzibati Prosessual Məcəllənin 15-ci maddələrində əks olunmuşdur. Bu prinsip onda ifadə olunur ki, tərəflər hüquq bərabərliyi şəraitində qarşılıqlı surətdə iş üzrə əhəmiyyət kəsb edən hallar barədə olan dəlilləri məhkəməyə təqdim edirlər və digər tərəf təqdim edilmiş sübutlarla tanış olaraq həmin sübutlara müvafiq öz dəlillərini təqdim edir. Məhkəmə hər hansı bir tərəfin xeyrinə və ya zərərinə sübutların toplanması ilə məşğul olmur, yalnız tərəflərin qarşılıqlı çəkişməsi nəticəsində müəyyən edilmiş hallar üzrə arbitr – yekun qərar verən instansiya qismində çıxış edir. Bu zaman hər hansı tərəfin təqdim etdiyi hallar üzrə digər tərəfə öz mövqeyini bildirmək imkanı yaradılır. Məhkəmə tərəflərdən vəsatət daxil olduqda əldə edilməsi vəsatət verən şəxs üçün qeyri-mümkün və ya çətin olan sübutların əldə edilməsini həyata keçirir. Doğrudur, məhkəmə öz təşəbbüsü ilə də sübutlar əldə edə bilər. Lakin bu, işdə hər hansı bir tərəfin üstünlük əldə etməsi ilə bağlı olmayıb, məhkəmənin ədaləti təmin etmək vəzifəsi ilə bağlıdır.

Beləliklə, yuxarıda qeyd edilənlər əsasında aşağıdakı ümumiləşdirmələri aparmaq mümkündür:

1) İnzibati prosessual fəaliyyətin əsas məqsədi insan və vətəndaşın hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsidir.
2) Bu məqsəd konstitusiya və digər qanunvericilik aktlarında əks edilmiş təminatlar vasitəsilə realizə edilir.
3) Bu təminatlar sırasına hakimlərin müstəqilliyi prinsipi, çəkişmə prinsipi, məhkəmənin yardım etmək vəzifəsi və s. prinsipləri misal göstərə bilərik.

Bütün bu qeyd edilənlərin əsasında belə bir nəticəyə gəlmək olar ki, inzibati məhkəmələrin və inzibati prosessual fəaliyyətin Azərbaycan Respublikasında yaradılmasında əsas məqsəd insan və vətəndaşın hüquq və azadlıqlarının daha yüksək səviyyədə təmin edilməsidir. Başqa sözlə, inzibati prosessual fəaliyyəti Konstitusiyada təsbit edilmiş insan və vətəndaşın hüquq və azadlıqlarının qorunması sahəsində mühüm bir addım kimi xarakterizə etmək olar. Bu prosessual fəaliyyət vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı təminatların genişləndirilməsinə yönəlmiş bir təsisat olmaqla yanaşı, insan və vətəndaşın hüquq və azadlıqlarının etibarlı qorunması istiqamətində mühüm bir mərhələdir.

## Müstəqil məhkəmə hakimiyyəti suverenliyin sütunlarından biridir

**Milli Konstitusiyamız müstəqilliyimizin hüquqi təminatı, dövlət quruculuğunun hüquqi bazası, suverenliyimiz isə dövlətimizin qüdrətinin rəmzidir. Konstitusiya dövlət hakimiyyətinin təşkili, vətəndaşların hüquq və azadlıqları, məhkəmə hakimiyyətinin müstəqilliyi prinsiplərini təsbit etməklə yanaşı, həm də suverenliyin daxili təminat mexanizmini səciyyələndirir.**



**Orxan İsmayılov,**
**Bakı Apellyasiya Məhkəməsinin hakimi**

1921, 1927, 1937 və 1978-ci illərdə Azərbaycanda da sovet siyasi sisteminin və dövrün ideologiyasına uyğun konstitusiyalar qəbul olunub. Müstəqil Azərbaycanın ilk milli, demokratik Konstitusiyasının hazırlanıb qəbul edilməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1994-cü ilin iyul ayında Milli Məclisin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Konstitusiya layihəsini hazırlayan xüsusi komissiyanın fəaliyyətə başlaması qərara alındı. Komissiyanın birinci iclasında Ulu Öndər Əsas Qanunun parametrlərini müəyyən edərək dedi: “Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivil, dünyəvi dövlət qururuq”.

Komissiya tərəfindən qısa müddətdə inkişaf etmiş demokratik ölkələrin konstitusion quruculuq təcrübəsi ətraflı öyrənildi, 1995-ci il noyabrın 12-də referendum yolu ilə Azərbaycanın ilk Milli Konstitusiyası qəbul edildi. Əsas Qanun dövlətin demokratik, hüquqi və dünyəvi əsaslar üzərində qurulmasını, hakimiyyət bölgüsü, qanunun aliliyi və insan hüquqlarının təminini təsbit etdi.

İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Milli Konstitusiyamızda əksini tapan müddəaların 2/3 hissəsi insan və vətəndaş hüquqlarının qorunması ilə bağlıdır. Ötən dövr ərzində bu ali sənədə 2002, 2009 və 2016-cı illərdə əlavə və dəyişikliklərin edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə “İnsan Hüquqları Günü” kimi təsis olunması insan hüquqlarının qorunmasının prioritetliyini əyani təsdiqləyir.

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi bu sahədə atılan növbəti addımdır. Konstitusiya və suverenlik dövlətçiliyin əsas sütunlarıdır. Onların qorunması Azərbaycanın gələcəyi üçün konseptual əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin dediyi kimi, “müstəqillik ən böyük sərvətimizdir və əbədi olacaqdır”.

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi təxribatlara və hərbi təcavüzünə cavab olaraq başlanan 44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevin Ali Baş Komandan kimi rəhbərliyi, Azərbaycan Ordusunun rəşadəti sayəsində torpaqlarımız işğaldan azad edildi və 2023-cü ilin lokal antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu, üçrəngli Bayrağımız Qarabağda və Şərqi Zəngəzurda dalğalandı.

Prezident İlham Əliyev ölkəmizin bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq, hər il sentyabrın 20-nin “Dövlət Suverenliyi Günü” kimi qeyd edilməsi haqqında 2024-cü il sentyabrın 19-da Sərəncam imzaladı.

Müasir dövrdə sabitlik və inkişaf hüquqi institutların fəaliyyət mexanizmləri ilə sıx bağlıdır. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması hüquqi dövlət quruculuğu prosesində məhkəmə hakimiyyətinin rolunu daha da aktuallaşdırır. Suverenlik ərazi bütövlüyünün müdafiəsi və beynəlxalq müstəvidə tanınma ilə yanaşı, həm də qanunun aliliyinə əsaslanan məhkəmə hakimiyyəti vasitəsilə reallaşır.

Hər bir demokratik dövlətdə olduğu kimi, Azərbaycanda da insan hüquq və azadlıqlarının müdafiəsində təməl rolunu məhkəmələr oynayır. Müstəqil və şəffaf məhkəmə sistemi demokratik islahatların, hüquqi dövlət quruculuğunun barometri sayılır. Ölkəmizdə məhkəmə hakimiyyəti vətəndaşların hüquq və azadlıqlarını real mexanizmlərlə müdafiə edərək suverenliyin daxili dayaqlarını gücləndirir.

Heydər Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları nəticəsində hüquq sistemi demokratik prinsiplər əsasında yenidən quruldu, mütərəqqi qanunlar qəbul edildi, üçpilləli məhkəmə sistemi və insan hüquqlarının müdafiəsi üçün effektiv mexanizmlər formalaşdırıldı.

Ulu Öndərin hüquqi dövlət quruculuğu strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin 2006, 2010 və 2019-cu illərdə imzaladığı fərmanlar məhkəmə-hüquq sisteminin yeni mərhələyə keçməsini təmin etdi. Bu islahatlar vahid məhkəmə təcrübəsinin əlçatanlığını artırdı, peşəkarlığın yüksəldilməsi, innovativ texnologiyaların tətbiqi və ədalət mühakiməsinin çevikliyinin təmin olunması ilə davam etdirilir.

Ölkəmizin Milli Konstitusiyası suverenliyin hüquqi bazasını yaradır, məhkəmə hakimiyyəti isə bu bazanın reallaşdırıcı mexanizmi kimi çıxış edir. Hüquqi suverenliyin qorunması, insan hüquqlarının müdafiəsi və hakimiyyət qolları arasında tarazlığın təmin olunması yalnız müstəqil və səmərəli məhkəmə sistemi vasitəsilə mümkündür.

Prezidentin 2019-cu il 3 aprel tarixli Fərmanı hakimlərin müstəqilliyini gücləndirməyi, məhkəmə hakimiyyətinin nüfuzunu artırmağı və cəmiyyətin etimadını möhkəmləndirməyi hədəfləyir. Fərmanda ədalət, qərəzsizlik, qanunçuluq prinsiplərinə riayət, məhkəmələrə müdaxilənin qarşısının alınması və buna görə məsuliyyətin artırılması, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etmələri tövsiyə edilir.

Məhkəmə hakimiyyətinin müstəqilliyinin daha səmərəli şəkildə təmin edilməsi məqsədilə beynəlxalq təcrübə, o cümlədən Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) Azərbaycanla bağlı tövsiyələri nəzərə alınmaqla Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasına dair qaydalar təkmilləşdirilib, "Məhkəmə-Hüquq Şurası haqqında" Qanuna dəyişikliklər edilərək Şuranın tərkibində icra hakimiyyəti orqanlarının nümayəndələrinin sayı azaldılmaqla, hakim üzvlərin sayı artırılmış (10 hakim üzv), habelə hüquqşünas alimin və hüquq ictimaiyyətinin nümayəndəsinin təmsil olunması təsbit edilib.

Yeni tərkibdə fəaliyyətə başlayan Məhkəmə-Hüquq Şurası tərəfindən qısa müddət ərzində hakimlərin seçim prosesinin sadələşdirilməsi, onların fəaliyyətinin qiymətləndirilməsi və digər konkret hədəflər müəyyənləşdirilib.

Ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, müraciətlərin operativ şəkildə cavablandırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurası və ölkəmizdə fəaliyyət göstərən digər məhkəmələrlə əlaqə saxlamaq üçün "Məhkəmə Çağrı Mərkəzi" istifadəyə verilib.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində məhkəmə hakimiyyətinin rolu hüquqi dövlətçilik və demokratik inkişaf prosesində əsas həlqələrindən biri kimi dəyərləndirilə bilər. Məhkəmə hakimiyyəti hüquqi dövlətin möhkəmlənməsində və demokratik inkişafda mühüm rol oynayır. Bu, həm ölkənin gələcək tərəqqisinə, həm milli kimliyin güclənməsinə, həm də hüquqi dövlət statusunun möhkəmlənməsinə ciddi töhfədir. Azərbaycan Prezidentinin məhkəmə-hüquq islahatlarına verdiyi xüsusi diqqət isə hakimləri və bütün hüquq sistemini daha məsuliyyətlə fəaliyyət göstərməyə sövq edir.

## "Konstitusiya və Suverenlik İli": Məhkəmə-hüquq islahatlarında səmərəlilik və yeni keyfiyyət mərhələsi

**Müasir dövlətçilik tariximizin ən qürurverici, şərəfli səhifələrindən biri olan, İkinci Qarabağ müharibəsində parlaq qələbəmizi simvollaşdıran tarixi Zəfərin beşinci ildönümü noyabrın 8-də tamam olur. Azərbaycan xalqı son beş ildə əldə etdiyi hərbi-siyasi qələbələrlə torpaqlarımızın otuz illik işğalına son qoymuş, müəyyən fasilələrlə iki əsrə qədər davam edən Qarabağ münaqişəsinin həllinə nail olmuşdur.**



**Abbas Rzayev,**
**Xəzər Rayon Məhkəməsinin sədri**

ABŞ mütəfəkkiri Tomas Vudro Vilsonun sözüdür: "Dənizçinin cəsarəti fırtınada, əsgərin cəsarəti müharibədə, xalqın cəsarəti isə ağır sınaq günlərində bəlli olur". Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribatlara – mülki əhalini və infrastrukturu hədəfə almasına cavab olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin "İrəli" əmri əsasında ayağa qalxan xalqımız tarixinin ən parlaq səhifəsini yazmışdır. Bu möhtəşəm Zəfər, habelə 2023-cü ilin sentyabr ayında həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz təmin edilmiş, milli birliyimiz daha da güclənmişdir.

2003-cü il oktyabrın 31-də keçirilmiş andiçmə mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev üzləşdiyimiz ədalətsiz münaqişənin həllini prioritet hədəflərdən biri kimi müəyyənləşdirərək demişdi: "Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Əminliklə demək olar ki, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2003-cü ilin prezident seçkiləri zamanı və sonrakı mərhələdə xalq qarşısında verdiyi bütün vədləri əməli işi ilə reallığa çevirmiş, rəhbəri olduğu dövləti "Güclü dövlət, yüksək sosial rifah, müstəqil siyasət" konsepti əsasında inkişaf etdirmişdir. Dövlət başçısının praqmatik lider kimi gücü və xarizması həm də qarşıda müəyyənləşdirdiyi milli ideya səviyyəli vəzifələri gerçəkləşdirmək üçün dərin strateji baxışa, yol xəritəsinə və daxili inama malik olmasındadır.

Gələcəyə dair baxış və strategiyalar nə qədər mükəmməl olsa da, onların taleyi, həyata keçirilməsi fövqəladə hadisələrdən, ssenarilərdən deyil, bütün hallarda lider missiyasından asılı olur. Beş il əvvəl müzəffər Ordumuzun gücü, xalqımızın mübarizə əzmi, Prezident İlham Əliyevin yüksək liderlik qətiyyəti, diplomatik məharəti sayəsində qazandığımız tarixi qələbədən sonra Azərbaycan öz inkişafının dönüş mərhələsinə qədəm qoymuşdur. Ölkə başçısının siyasi iradəsi ilə hazırda yalnız ölkə miqyasında deyil, bütövlükdə regionda və dünyada cərəyan edən proseslərin axarını yeni məcraya yönəldən tarixi qərarlar verilir.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin Azərbaycan

Respublikasında "Konstitusiya və Suverenlik İli” elan edilməsi də diqqətəlayiqdir. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməklə, bu il noyabr ayının 12-də ümumxalq referendumu ilə qəbulunun 30-cu ildönümü tamam olacaq Azərbaycan Respublikası Konstitusiyasının suverenliklə bağlı müddəalarının hüquqi təsir gücünü tam şəkidə reallaşdırmışdır.

İkinci Qarabağ müharibəsi və lokal antiterror tədbirlərinin mühüm nəticələrindən biri də xalqımızın bir sıra konstitusion hüquq və azadlıqlarının tam təmin olunmasıdır. Ermənistanın xarici dəstək hesabına 30 ildən çox davam etmiş işğalçı siyasəti nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində Azərbaycan qanunlarının yurisdiksiyasının, habelə inzibati dövlət qurumlarının fəaliyyətinin təmini mümkün olmamışdır. İşğalın davam etdiyi illərdə ərazilərimizdə qeyri-qanuni separatçı rejimin formalaşdırılması, bələdiyyə və parlament seçkilərinin keçirilməməsi, dövlət orqanlarının fəaliyyət göstərməməsi xalqın suverenliyi prinsipi ilə ziddiyyət təşkil etmişdir.

Azərbaycanın parlaq zəfərlərini şərtləndirən amillər sırasında ölkəmizin beynəlxalq tələblərə cavab verən mükəmməl Konstitusiyaya və qanunlara malik olmasını da xüsusi qeyd etmək lazımdır. Xatırlatmaq zəruridir ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın çağırışına cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə mətinliklə sinə gərərək xalqımızı vətəndaş müharibəsindən, milli müstəqilliyin itirilməsi təhlükəsindən, hərcmərclik və xaos mühitindən qurtarmışdır. Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətlənmişdir. Ulu Öndər, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası, ölkəmizin müdafiə qüdrətinin gücləndirilməsi istiqamətində gərgin iş aparmalı olmuş, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir.

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, hər bir ölkədə aparılan hüquqi islahatların səmərəli nəticələr verməsi məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsindən, mükəmməl mexanizmlər üzərində qurulmasından bilavasitə asılıdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyası ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğunun bünövrəsini qoymaqla, insan hüquqlarının təmin olunmasını, müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılmasını dövlətin ali məqsədi kimi təsbit etmişdir.

Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi ilə yanaşı, məhkəmə hakimiyyətinin müstəqilliyi, özünüidarə funksiyaları, hakim vəzifəsinə tələblər, onların statusu ilə bağlı mühüm məsələlər əksini tapmışdır. Əsas Qanunun 60-cı maddəsi ilə hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilmişdir. Ümumiyyətlə, Konstitusiyanın 62, 63, 64, 65, 66 və 67-ci maddələri vətəndaşların məhkəmə hakimiyyətinə müraciət imkanlarını, təqsirsizlik prezumpsiyasını, bir cinayətə görə təkrarən məhkumetməyə, habelə qohumların əleyhinə ifadəyə yol verilməməsini, tutulan, həbsə alınan və cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqlarının qorunmasını, cinayət törədilməsində təqsirləndirilən hər bir şəxsin məhkum edilməzdən əvvəl dinlənilməsini və s. məsələləri nəzərdə tutur.

1998-ci il 1 dekabr tarixdə qüvvəyə minmiş “Məhkəmələr və hakimlər haqqında” Qanunda məhkəmə fəaliyyətinin hüquqi əsasları, ədalət mühakiməsinin daha səmərəli təşkili qaydaları, hakim vəzifəsinə seçkilərlə bağlı bir sıra zəruri tələblər və digər məsələlər əksini tapmışdır. Bu Qanunun qəbulu məhkəmə orqanlarının sovet dövründən miras qalmış köhnə funksiyalardan azad olmasına, onların fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına, bir sözlə, ədalət məhkəmələrinin cəmiyyətdəki nüfuzunun möhkəmləndirilməsinə xidmət etmişdir. Aparılan məhkəmə-hüquq islahatı nəticəsində keçmiş

Sovet İttifaqından miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulmuş, birinci instansiya, apellyasiya və kassasiya instansiyalarından ibarət yeni üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır.

Ümummilli Lider Heydər Əliyev deyirdi ki, hakimlər ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən əməl etməli, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etməli, ədalətli və qərəzsiz olmalı, hakim adına xələl gətirən hərəkətlərdən çəkinməlidirlər. Həmin dövrdə Ulu Öndərin qarşıya qoyduğu bu məqsədlərin reallaşdırılması istiqamətində də bir sıra zəruri tədbirlər həyata keçirilmiş, müstəqil və demokratik məhkəmə hakimiyyətinin formalaşdırılması sahəsində zəngin ənənələri olan dövlətlərin qabaqcıl təcrübəsi öyrənilmişdir. 2000-ci ildə Azərbaycanda ilk dəfə olaraq hakim vəzifəsinə seçkilərin test üsulu ilə seçilməsi isə Ulu Öndərin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin təmini və keyfiyyətinin yüksəldilməsi istiqamətində atılan mühüm addımlardan biri olmuşdur.

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarını 2003-cü ildən inamla davam etdirən, yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Azərbaycan Prezidenti İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olaraq, məhkəmə hakimiyyətinin yeniləşdirilməsini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Son 22 ildə yeni dövrün tələblərinə adekvat şəkildə reallaşdırılan bu islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaqdır.

Bu istiqamətdə mühüm addımlardan biri "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun qəbulu və Məhkəmə-Hüquq Şurasının yaradılması olmuşdur. 2005-ci ildə Məhkəmə-Hüquq Şurasının fəaliyyətə başlaması ilə ölkəmizdə məhkəmə hakimiyyətinin inkişafı, onun idarə olunmasının institusional əsaslar üzərində qurulması məsələləri uğurlu həllini tapmışdır. Şura fəaliyyət göstərdiyi 20 il ərzində hər kəsin məhkəməyə müraciət etmək imkanının genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılması, yüksək hüquqi biliklərə malik hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində yeni texnologiyaların tətbiqi və digər mühüm istiqamətlərdə əhəmiyyətli nəticələrə nail oluş, cəmiyyətin ədalət mühakiməsinə inamının möhkəmlənməsində xüsusi rol oynamışdır.

Müstəqil məhkəmə sisteminin yaradılması, vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsinin şəffaş və obyektiv formada təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və digər məsələlərin həlli ötən 20 ildə Şuranın xüsusi diqqət mərkəzində olmuşdur.

Yeni dövrün aktual çağırışlarına adekvat şəkildə reallaşdırılan məhkəmə-hüquq islahatları çərçivəsində regionlarda və paytaxtda yeni məhkəmələrin yaradılması ədalət mühakiməsinin səmərəliliyini daha da yüksəltmişdir. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar, 2010-cu il 15 iyul və 2019-cu il 3 aprel tarixli fərmanları əsasında institusional islahatlar həyata keçirilmiş, məhkəmə orqanlarına əlçatanlığın yaxşılaşdırılması, vətəndaş məmnunluğunun təmini məqsədilə 40-dək yeni məhkəmə yaradılmış, məhkəmə aparatlarının strukturu təkmilləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı aparılan inqilabi xarakterli islahatların davamı olaraq, məhkəmə hakimiyyətinin daha da möhkəmləndirilməsini və inkişafını təmin etmişdir. Fərman əsasında bir sıra vacib məsələlərlə yanaşı, sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilikləri, təcrübəsi olan hakimlər tərəfindən baxılması məqsədilə yeni regional kommersiya və inzibati məhkəmələrin yaradılması təmin edilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin başçısının müvafiq fərmanları əsasında ötən 20 ildə ölkə üzrə hakim ştatlarının sayı 3 dəfədən çox artırılaraq 800-ə çatdırılmış, hakimlərin müstəqilliyinin gücləndirilməsi aparılan islahatların ana xəttini təşkil etmişdir. Hakimlərin ən yüksək həddədək – müddətsiz təyinatı, onların fəaliyyətinə kənar müdaxilənin qarşısının alınması, məhkəmələrin maliyyə müstəqilliyinin təminatının əlavə mexanizmləri təsbit edilmiş, onların maaşlarının azaldılması qadağan olunmuşdur.

Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) hesabatına əsasən, Azərbaycanda hər 100 min nəfərə düşən hakimlərin sayı Avropa üzrə orta göstəricidən təxminən üç dəfə azdır. Belə ki, bu göstərici Azərbaycanda hazırda 6,3, Avropada isə 17,6 təşkil edir. Son üç il ərzində 1600-dən çox namizəd hakimliyə qəbul üzrə seçim prosesində iştirak etmiş, onlardan 210 nəfər yüksək məhkəmə orqanlarına hakim təyin olunmuşdur. Yeni təyin olunmuş hakimlərin əksəriyyəti 35 yaşadək şəxslərdir və onların təxminən 50 faizini qadınlar təşkil edir.

Azərbaycan Respublikasının Ali Məhkəməsi və Məhkəmə-Hüquq Şurasının yeni rəhbərliyinin təşəbbüskarlığı və təşkilatçılığı ilə son iki ildə həyata keçirilən islahatların səmərəliliyi də bu kontekstdə xüsusi vurğulanmalıdır. 2023-cü ilin aprel ayında cənab İnam Kərimovun Ali Məhkəmənin sədri təyin olunması ilə ölkəmizdə məhkəmə-hüquq islahatları yeni vüsət almışdır. Yeni çağırışlardan qaynaqlanan bu kadr islahatı dövlətin uzunmüddətli hüquq strategiyasına uyğun olaraq, məhkəmə sisteminin müasir idarəetmə prinsiplərinə əsaslanmasına, ictimai etimadın gücləndirilməsinə və ədalət mühakiməsinin effektivliyinin artırılmasına yönəlmişdir.

2023-cü ildə Məhkəmə-Hüquq Şurasının tərkibinin yenilənməsi ilə məhkəmə-hüquq sistemində institusional islahatlara start verilmişdir. Bu addım hakimlik institutunun müstəqilliyini gücləndirmək, Şuranın qərar qəbuletmə prosesində şəffaflığı təmin etmək, məhkəmələrə ictimai etimadı artırmaq məqsədi daşımışdır.

Müasir dünyada məhkəmə icraatının effektivliyinin yüksəldilməsi vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə prosedurlarının səmərəli və effektiv keçirilməsi, qərarların aydın və ağlabatanlığı ilə dəyərləndirilir. Həmin tələblərə cavab verən hakim korpusunun formalaşdırılması vəzifəsi isə Məhkəmə-Hüquq Şurasının üzərinə düşür.

İslahatlar prosesi çərçivəsində Şura üzvlərinin seçilməsi mexanizmi də dəyişmişdir. Əvvəlki dövrdə Şuranın tərkibi əsasən hakimlər və dövlət strukturlarının nümayəndələrindən ibarət idisə, 2023-cü ildən etibarən Vəkillər Kollegiyası, hüquq fakültələrinin professor-müəllim heyəti, hüquqşünas ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu tərkibə daxil edilmişlər. Bu yenilik Şuranın fəaliyyətində şəffalığı, səmərəliliyi artırır, məhkəmə hakimiyyətinə etimadı gücləndirir.

Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklər əsasında Hakimlərin Qiymətləndirilməsi Komitəsinin yaradılmasını xüsusi qeyd etmək lazımdır. Xarici ekspertlərin rəyləri və mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla, Məhkəmə-Hüquq Şurası tərəfindən Hakimlərin Qiymətləndirilməsi Komitəsi haqqında Əsasnamə, Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası hazırlanmışdır. Hakimlərin Qiymətləndirilməsi Komitəsi Məhkəmə-Hüquq Şurası tərəfindən hər instansiyadan 3 hakim olmaqla (Azərbaycan Respublikası Ali Məhkəməsinin üç hakimi, apellyasiya instansiyası məhkəmələrinin üç hakimi, birinci instansiya məhkəmələrinin üç hakimi), 9 hakim üzvdən ibarət tərkibdə formalaşdırılmışdır.

2024-cü il 7 noyabr tarixdə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklərə əsasən, hakimlərin seçimi prosesi mərhələlərinin sayı 4-dən 3-ə endirilməsi də xüsusi qeyd edilməlidir. Dəyişikliyə əsasən, hakim vəzifəsinə namizədlərin seçimi

hazırda test imtahanı, yazılı imtahan və müsahibə əsasında aparılır. Həmin dəyişiklərdən irəli gələrək, "Vakant hakim vəzifələrinə namizədlərin seçilməsi Qaydaları" yenidən işlənərək, Məhkəmə-Hüquq Şurasının Qərarı ilə təsdiqlənmiş, 2025-ci il 14 avqust tarixdə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.

Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin genişləndirilməsi texnoloji və idarəetmə yenilikləri ilə müşayiət olunur. Ali Məhkəmənin yeni rəhbərliyi tərəfindən irəli sürülmüş Femida Dialoq Platforması məhkəmə-hüquq sistemində dialoq, şəffaflıq və qarşılıqlı əlaqə mühitinin gücləndirilməsinə xidmət edən mühüm təşəbbüs kimi özünü doğruldur. Bu platforma məhkəmələr, vəkillər, hüquqşünaslar, sahibkarlar, vətəndaş cəmiyyəti institutları və ictimai təşkilatlar arasında mütəmadi fikir mübadiləsi aparmaq üçün yaradılmışdır. Əsas məqsəd hüquqi islahatların praktik aspektlərini müzakirə etmək, hüquq sistemindəki problemləri birbaşa mütəxəssislər və istifadəçilərin iştirakı ilə müəyyənləşdirmək, bu sahədə qarşılıqlı etimadı möhkəmləndirməkdir. Platforma ədalət mühakiməsinin səmərəliliyini artırmaq, məhkəmələrə ictimai etimadı gücləndirmək və ədalət sisteminin fəaliyyətini daha şəffaf etmək kimi məqsədlər daşıyır.

Platforma təkcə hüquqşünasların peşəkar dialoqunu deyil, həm də hüquqi maarifləndirmə istiqamətində fəaliyyətləri əhatə edir. Burada vətəndaşlara və sahibkarlara məhkəməyə müraciət mexanizmləri, mübahisələrin alternativ həlli üsulları (mediasiya, arbitraj) və qanunvericilikdəki yeniliklər barədə məlumatlar verilir. Femida Dialoq Platforması hüquq sistemində nəzəri-təcrübi bilik mübadiləsi üçün real mexanizm yaratmışdır.

Rəqəmsal islahatlar hazırda məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. "Elektron məhkəmə" platformasının genişləndirilməsi, onlayn iclasların təşkili, elektron imza və sənəd dövriyyəsinin tətbiqi ədalət mühakiməsinin çevikliyini və şəffaflığını təmin edir. Bu addımlar məhkəmə qərarlarının operativ şəkildə qəbulunu, proseslərin izlənməsini və vətəndaşların sistemə birbaşa çıxış imkanlarını genişləndirir. Yaxın gələcəkdə süni intellektin məhkəmə təcrübəsinin analizi, qərarların standartlaşdırılması və iş yükünün optimallaşdırılması məqsədilə tətbiqi nəzərdə tutulur.

Regionlarda məhkəmə infrastrukturunun bərpası və inkişafı istiqamətində də tədbirlər davam etdirilir. Yeni məhkəmə binalarının inşası, texnoloji avadanlıqlarla təminat, o cümlədən işğaldan azad edilən ərazilərdə məhkəmə sisteminin bərpası vətəndaşların ədalət mühakiməsinə bərabər çıxış hüququnun təmin olunmasına xidmət edir. Bu, hüququn aliliyinin yalnız paytaxtda deyil, bütün bölgələrdə real tətbiqinə şərait yaradır.

Məhkəmə-hüquq islahatlarının digər mühüm istiqamətini vahid məhkəmə təcrübəsinin formalaşdırılması təşkil edir. Ali Məhkəmənin qəbul etdiyi qərarların hüquqi əsaslandırma səviyyəsinin yüksəldilməsi, qanunvericiliyin tətbiqində ardıcıllığın təmin olunması və hüquqi müəyyənlik prinsipinin qorunması prioritet məsələlərdən sayılır. Qanunvericilikdəki boşluqların və ziddiyyətlərin aradan qaldırılması, məhkəmə qərarlarının məntiqi əsaslandırılması, ictimaiyyətə açıq şəkildə təqdim olunması hüquqi mədəniyyətin inkişafına ciddi təsir göstərir.

Məhkəmə-Hüquq Şurası tərəfindən hakimliyə namizədlərin biliklərinin artırılması, xarici ölkələrin məhkəmə təcrübələrinin öyrənilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Yerli və xarici ölkələrdəki tədris kursları çərçivəsində namizədlərin hakimlik fəaliyyətinə hazırlanmaları təmin edilir.

Bütün bunlar təsdiq edir ki, İkinci Qarabağ müharibəsi və lokal antiteror tədbirlərindən sonra Azərbaycan bir sıra mühüm sahələrdə, o cümlədən məhkəmə-hüquq islahatları sferasında nəzərəçarpacaq uğurlara imza atmışdır. Əminliklə deyirik ki, dövlətimizin başçısının uğurla davam etdirdiyi bu islahatlar nəticəsində Azərbaycanda məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti perspektivdə daha da müasirləşəcək, əhaliyə göstərilən hüquqi yardımın səviyyəsi yüksələcək, ədalət mühakiməsinin daha çevik, işlək və obyektiv mexanizmlər əsasında həyata keçirilməsi mümkün olacaqdır.

# Konstitusiya Azərbaycan Respublikasının məhkəmələri tərəfindən beynəlxalq hüquq normalarının tətbiqinin hüquqi əsası kimi



**Əlizadə Məmmədov,**

**Məhkəmə-Hüquq Şurasının üzvü, Bakı Dövlət Universiteti "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olaraq müəyyən edilməsi heç də təsadüfi deyildir. Belə ki, 1995-ci il Konstitusiyasının qəbul edilməsi xalq suverenliyinin dövlət suverenliyinə çevrilməsini hüquqi olaraq təsdiq edir. Bir tərəfdən, 1995-ci il Konstitusiyası müstəqil Azərbaycan Respublikasının suverenliyinin "məhsulu" qismində çıxış edir, digər tərəfdən, müstəqil Azərbaycan Respublikasının suverenliyinin qorunmasının hüquqi əsasını təşkil edir.

Müəllifi Ümummilli Lider Heydər Əliyev olan 1995-ci il Konstitusiyasının qəbul edilməsi milli dövlətçiliyimizin və hüquq qaydasının formalaşmasında əhəmiyyətli olan bir mərhələnin əsasını qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olaraq müəyyən edilməsi ərazi bütövlüyümüzün bərpası ilə zənginləşən bu mərhələnin zəfərlə qeyd edilməsini özündə ehtiva edir.

1995-ci il Konstitusiyası milli qanunvericiliklərin harmonizasiyasından irəli gələn xüsusiyyətlərə malik olmaqla özündə milli hüquq düşüncəsini və milli dövlətçilik fəlsəfəsini birləşdirən unikal bir hüquqi sənəddir. Bu kontekstdə 1995-ci il Konstitusiyası beynəlxalq standartlara uyğun insan hüquqları sistemini özündə ehtiva etməklə, eyni zamanda Azərbaycan Respublikasının hüquqi sisteminin ümumi qaydasının (ordre public) da əsasını təşkil edir. Bu anlamda müasir Azərbaycan Respublikasında həyata keçirilən qanunvericilik (maddi hüquqi) və institusional (prosessual hüquqi) islahatların əsasını təşkil edən 1995-ci il Konstitusiyası Azərbaycan Respublikasının suverenliyi ilə yanaşı, onun hüquqi sisteminin ümumi qaydasının (ordre public) qorunması funksiyasını da yerinə yetirir. Qeyd edək ki, 1995-ci il Konstitusiyasının Azərbaycan Respublikasının hüquqi sisteminin ümumi qaydasının əsasını təşkil etməsi iki prizmadan əhəmiyyətlidir:

1) Konstitusiya dövlətdaxili ümumi qaydanın məzmununu müəyyən etməklə, ümumi qaydanın həm daxili, həm də xarici (beynəlxalq) aspektini özündə birləşdirir. Belə ki, Konstitusiyanın Azərbaycan Respublikasının hüquqi sistemində ən yüksək hüquqi qüvvəyə malik olması ümumi qaydanın daxili aspektini təşkil edir. Qeyd olunan müddəa kontekstində Azərbaycan Respublikasının hüquqi sistemində hər hansı daxili qanunvericilik aktı, bu aktların realizəsi istiqamətində hər hansı hərəkət Konstitusiyaya zidd ola bilməz. Konstitusiyanın 151-ci maddəsi isə ümumi qaydanın xarici aspektini təşkil edir. Yəni Azərbaycan Respublikasında tətbiq edilən hər hansı beynəlxalq müqavilə Konstitusiyaya zidd ola bilməz. Qeyd edək ki, Beynəlxalq xüsusi hüquq haqqında Qanunun 4-cü maddəsinə müvafiq olaraq, 151-ci maddənin müddəası Azərbaycan Respublikasının hüquqi sistemində tətbiq edilən xarici dövlətin hüququna da şamil etmək olar. Həm də nəzərə

almaq lazımdır ki, beynəlxalq müqavilələr xarici dövlətin hüququnun tərkib hissəsi kimi də tətbiq edilə bilər. 151-ci maddənin yalnız dövlətlərarası beynəlxalq müqavilələrə şamil edilməsi digər beynəlxalq müqavilələrin hüquqi qüvvəsi ilə bağlıdır. “Normativ hüquq aktlar haqqında” 2010-cu il Konstitusiya Qanununa müvafiq olaraq, sonuncu beynəlxalq müqavilələr hüquqi qüvvə baxımından qanunlara deyil, onların məcburliyinə razılığın verildiyi normativ hüquqi (qanunqüvvəli) aktlara bərabər tutulur. Təbii ki, burada daxili qanunvericilikdən fərqli qaydalar müəyyən edən hökumətlərarası beynəlxalq müqavilələr istisna təşkil edir. Belə ki, həmin beynəlxalq müqavilələr Milli Məclis tərəfindən ratifikasiya olunduğu üçün onların hüquqi qüvvəsi dövlətlərarası beynəlxalq müqavilələrin hüquqi qüvvəsinə bərabər tutulur. Bu anlamda Konstitusiyanın 151-ci maddəsinin müddəasını qeyd olunan hökumətlərarası beynəlxalq müqavilələrə də şamil etmək olar. Ümumi qayda kontekstində 151-ci maddə ilə bağlı bir məqamı da diqqətdən qaçırmamaq lazımdır ki, maddə Konstitusiya ilə yanaşı, referendumla qəbul edilən aktları da ümumi qaydanın əsasına daxil edir. Hərçənd, bu status Konstitusiya qanunlarına şamil edilmir. Amma bu hal “Konstitusiya qanunlarının Konstitusiyanın tərkib hissəsi olması” faktını dəyişmir. Cəmiyyətin və ictimai münasibətlərin inkişafının obyektiv olması mövqeyindən çıxış edən Konstitusiyanın özünəməxsus “dəyişiklik mexanizmi” müəyyən etməsi kontekstində, beynəlxalq hüquq normalarının tətbiqi zamanı ümumi qayda qismində, Konstitusiyanın əsas mətninə zidd olmamaq şərtilə, Konstitusiyanın tərkib hissəsi kimi Konstitusiya qanunlarının da müddəaları nəzərə alına bilər.

2) Konstitusiya Azərbaycan Respublikasının daxili ümumi qaydasının beynəlxalq ümumi qaydaya uyğunluğunu təmin edir. Belə ki, “beynəlxalq hüquq normalarına hörmət prinsipi üzərində qurulan Azərbaycan Respublikası Konstitusiyası” dövlətdaxili ümumi qaydanın dövlətin beynəlxalq öhdəlikləri nəzərə alınmaqla müəyyən olunmasını təsbit edir. Konstitusiyanın 10-cu və “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 8 və 22-ci maddələrinə müvafiq olaraq, qeyd olunan beynəlxalq öhdəliklərin hüquqi əsası qismində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları, xüsusilə beynəlxalq hüququn əsas prinsipləri çıxış edir. İmperativ (jus cogens) normalar olaraq beynəlxalq ümumi qaydanın da əsasını təşkil edən bu prinsiplərin dövlətdaxili ümumi qaydaya daxil edilməsi aşağıdakılar baxımından əhəmiyyətlidir: 1) dövlətdaxili ümumi qaydanın beynəlxalq ümumi qaydaya uyğun olmasını təmin edir; 2) bu prinsiplərə zidd olan beynəlxalq müqavilə normalarının və xarici hüququn tətbiq edilməsinin qarşısını alır.

Qeyd olunanlar 1995-ci il Konstitusiyasının beynəlxalq hüquq ilə Azərbaycan Respublikasının daxili hüququ arasında unikal qarşılıqlı əlaqə müəyyən etməsini göstərir. Belə ki, 1995-ci il Konstitusiyası beynəlxalq hüquqla Azərbaycan Respublikasının daxili hüququ arasında özünəməxsus “hüquqi körpü” rolunu oynayır. Bu “hüquqi körpü”nün özünəməxsusluğu ondadır ki, Konstitusiya, bir tərəfdən, müxtəlif dövlətlərin konstitusiyaları üçün ümumi olan xüsusiyyətləri özündə ehtiva etməklə harmonizasiya aktı qismində, digər tərəfdən, Azərbaycan cəmiyyətinin sosial, iqtisadi və hüquqi sistemi üçün xarakterik olan xüsusiyyətləri əks etdirməklə ali hüquqi qüvvəyə malik olan milli qanunvericilik aktı qismində çıxış edir. Konstitusiyanı ali qanunvericilik aktı kimi təsbit edən 147-ci maddəyə görə, Konstitusiya yalnız ali hüquqi qüvvəyə malik deyil, eyni zamanda birbaşa tətbiq edilmək xüsusiyyətinə malikdir. Bu kontekstdə 1995-ci il Konstitusiyasının müəyyən etdiyi “hüquqi körpü” iki hüquqi dayağa söykənir: 1) beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyünün (beynəlxalq hüququn üstünlüyü prinsipi) qəbul edilməsi; 2) Azərbaycan Respublikasının hüquqi sisteminin ümumi qaydasının (ordre public) qorunmasının (ümumi qaydanın qorunması prinsipi) zəruri olması.

Bu prinsiplərdən çıxış edən 1995-ci il Konstitusiyası dövlətdaxili hüquqla beynəlxalq hüququn qarşılıqlı əlaqəsində yeni və özünəməxsus yanaşmanı hüquqi baxımdan rəsmiləşdirir. Belə ki, Konstitusiya beynəlxalq hüquqa özünəməxsus "dost mövqe" tutmaqla dövlətin beynəlxalq sferada suverenliyinin yalnız beynəlxalq hüquqla məhdudlaşdırıla bilməsini təsdiqləyir. Əslində qeyd olunan hüquqi mövqe müasir beynəlxalq hüquq üçün xarakterik olan "dövlətlər beynəlxalq hüquq çərçivəsində suverenliyə malikdir" formulasına uyğundur. Bu hüquqi mövqeyi Konstitusiyanın aşağıdakı müddəaları ilə əsaslandırmaq olar:

1) Konstitusiyanın 7-ci maddəsinə müvafiq olaraq, demokratik, hüquqi dövlət olan Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə (daxili suverenlik) yalnız hüquqla (qanunla deyil), xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə məhdudlaşır;

2) Konstitusiyanın 10-cu maddəsinə əsasən, müstəqil dövlət olaraq Azərbaycan Respublikası digər dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur;

3) Konstitusiyanın 130-cu maddəsinin 6-cı bəndinə əsasən, beynəlxalq müqaviləyə tərəfdar çıxılarkən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi qüvvəyə minməyən dövlətlərarası müqavilələrin Konstitusiyaya, hökumətlərarası müqavilələrin Konstitusiya və qanunlara uyğunluğunu müəyyən edir.

4) Belə ki, bəzi müddəaların (maddələr 1, 2, 6, 7, 8 və 21) imperativ olmasını nəzərdə tutan Konstitusiya özünün III fəslində nəzərdə tutulan insan hüquqlarına aid müddəaların ləğv edilməsi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq məhdudlaşdırılmasının yol verilməz olmasını müəyyən edir (maddə 12).

5) Konstitusiyada sadalanan III fəsil insan hüquq və azadlıqlarının (daha doğrusu onlarla bağlı normaların) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsini müəyyən edir (maddə 12).

6) Konstitusiyaya və referendumla qəbul edilən aktlara zidd olan beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquqi sistemində tətbiq edilə bilməz (maddə 151).

1995-ci il Konstitusiyasının müəyyən etdiyi "hüquqi körpü" özündə həm statik, həm də dinamik aspektləri birləşdirir. Statik aspekt sırf nəzəri xarakter kəsb edir. Dinamik aspekt isə beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının hüquqi sistemində realizəsini özündə ehtiva edir və daha çox təcrübi xarakter kəsb edir. Əslində, qarşılıqlı əlaqənin müəyyən edilməsində nisbət məsələsinə toxunmadan əsas diqqəti beynəlxalq hüquq normalarının milli hüquqi sistemdə realizəsinə yönəltmək lazımdır. Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminə sıx inteqrasiya olunduğu müasir dövrdə Konstitusiya dövlətdaxili realizə istiqamətində iki aspektli bir yol müəyyən edir: 1) Azərbaycan Respublikasının daxili qanunvericiliyi ilə beynəlxalq hüquq normalarının uzlaşdırılması. Azərbaycan Respublikasının daxili qanunvericiliyinin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğunlaşdırılması zərurətini ("Normativ hüquq aktlar haqqında" Konstitusiya Qanunu, maddə 22) özündə ehtiva edən bu aspekt maddi hüquqi xarakter kəsb edir. Yəni, realizənin qanunvericilik əsaslarının müəyyən edilməsindən ibarətdir; 2) beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının hüquqi sistemində tətbiq edilməsi (prosessual hüquqi aspekt). Beynəlxalq hüquq normalarının dövlətdaxili realizəsinin prosessual hüquqi aspekti üzrə tətbiq səlahiyyəti icra və məhkəmə hakimiyyəti qolları arasında bölüşür. Hesab edirik ki, tətbiq prosesində məhkəmə hakimiyyəti qolunun daha önəmli olmasını ədalət mühakiməsini yalnız məhkəmələrin həyata keçirməsi (Konstitusiya, maddə 125) ilə izah etmək olar. İnsan hüquqlarının məhkəmə müdafiəsini həyata keçirən məhkəmələr Konstitusiyanın

127-ci maddəsində təsbit edilən “hakimlər yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər” müddəasının beynəlxalq hüquq normalarının tətbiq edilə bilməməsi kimi təfsir etməməlidir. Hərçənd “Məhkəmələr və hakimlər haqqında” 1997-ci il Qanununun 4-cü maddəsinə müvafiq olaraq, məhkəmələr konkret işə baxarkən Konstitusiya və qanunlarla yanaşı, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri də rəhbər tutur. Bu kontekstdə Konstitusiyanın qeyd olunan müddəası belə təfsir edilməlidir: 1) beynəlxalq hüquq normalarının hansının necə tətbiq edilməsini Konstitusiya müəyyən edir; 2) Azərbaycan Respublikası hüququnun ümumi qaydasının (ordre public) qorunması zərurəti yarandıqda məhkəmə Konstitusiyaya istinad etməlidir. Çünki Konstitusiya ümumi qaydanın məzmununu müəyyən edir.

1995-ci il Konstitusiyası beynəlxalq hüquq yaradıcılığının mahiyyətinə müvafiq olaraq, beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tətbiqi üçün həmin normaların Azərbaycan Respublikasına münasibətdə hüquqi qüvvəsinin tanınmasının (opinio yuris) zəruriliyini müəyyən edir. Konstitusiyada təsbit olunan “hamılıqla qəbul edilmiş” (maddələr 10 və 70) və “Azərbaycan Respublikasının tərəfdar çıxdığı” (maddələr 7, m.12, m.148 və s.) ifadələri beynəlxalq hüquq normalarının tətbiq sərhədlərini müəyyən edir. Yəni “tərəfdar çıxdığı” ifadəsi yalnız Azərbaycan Respublikasının iradəsinin ifadə edildiyi beynəlxalq hüquq normalarının ona münasibətdə hüquqi qüvvəyə malik olmasını şərtləndirir. Konstitusiya bu yolla beynəlxalq hüquq normalarını “özününküləşdirir”. Hesab edirik ki, Konstitusiyanın bəzi maddələrində (maddələr 10 və 70) təsbit olunan “hamılıqla qəbul edilmiş” anla¬yışı¬ “Azərbaycan Respublikasının tərəfdar çıxdığı” ifadəsinə bərabər tutula bilər. Çünki, “hamılıqla qəbul edilmiş” anlayışı erga omnes xarakterli beynəlxalq adət hüquq normalarını özündə ehtiva edir.

1995-ci il Konstitusiyasında “Azərbaycan Respublikasının tərəfdar çıxdığı” ifadəsinin yalnız beynəlxalq müqavilələrə şamil edilməsi, “hamılıqla qəbul edilmiş” istisna olmaqla, digər beynəlxalq hüquq normalarının tətbiq edilə bilməsini mübahisələndirə bilər. Baxmayaraq ki, bəzi hallarda Konstitusiya (maddələr 1 və 69) sadəcə beynəlxalq hüquqla müəyyən edilən normalara və ya beynəlxalq hüquq normalarına istinad edir. Əslində, bu müddəalar müəyyən mənada bəyanat xarakterli görünə bilər. Belə hallarda Azərbaycan Respublikasının məhkəməsi Konstitusiyanın 127-ci maddəsinin müddəasına əsasən istinad edilən beynəlxalq hüquq normalarını tətbiq edə bilər. Əlbəttə, bu halda bir qayda olaraq qeyri-müqavilə xarakterli beynəlxalq hüquq normaları nəzərdə tutulur. Bu hallarda məhkəmə “beynəlxalq hüquqa hörmətlə yanaşma” prinsipindən çıxış edir. Bundan başqa, həmin normalara istinad edilməsi “Müqavilələr hüququ haqqında” 1969-cu il Vyana Konvensiyasının 43-cü maddəsində təsbit olunan “müqavilənin etibarsızlığı, ləğv edilməsi və ya denonsasiyası, tərəflərdən birinin müqavilədən çıxması və ya onun qüvvəsinin dayandırılması hər hansı dövlətin bu müqavilədə əks olunan və həmin müqavilədən asılı olmayaraq beynəlxalq hüquq əsasında tənzimlənən hər hansı öhdəliyinin yerinə yetirilməsi üzrə vəzifəsinə heç bir qaydada xələl gətirmir” müddəası kontekstində heç də qeyri-real deyildir. Digər tərəfdən, Konstitusiya ilə müəyyən edilən “tərəfdar çıxmaq” şərti sahəvi qanunvericilik aktları vasitəsi ilə beynəlxalq müqavilə olmayan digər beynəlxalq hüquq normaları üçün müəyyən edilə bilər. Məsələn, 2001-ci il tarixli Ticarət Gəmiçilik Məcəlləsində bu şərt ticarət gəmiçiliyi adətlərinə münasibətdə müəyyən edilir.

Sual yarana bilər: məhkəmələr Azərbaycan Respublikasının tərəfdar çıxmadığı beynəlxalq müqavilələri tətbiq edə bilərmi? Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr “özününküləşməklə” daxili qanunvericilik sisteminin

tərkib hissəsinə çevrilir. Tərəfdar çıxılmayan beynəlxalq müqavilələrdə bu baş vermir. Bu anlamda verilən sualı birmənalı cavablandırmaq da çətindir. Amma sualı cavablandırarkən "tənzimlənən münasibətlərin xarakteri" nəzərə alınmalıdır. Təcrübə göstərir ki, daha çox beynəlxalq xüsusi münasibətlər sferası üçün xarakterik olan aşağıdakı hallarda məhkəmə Azərbaycan Respublikasının tərəfdar çıxmadığı beynəlxalq müqavilələri tətbiq etmə zərurəti ilə üzləşə bilər: 1) Kolliziya norması xarici hüquqa istinad etdikdə. Məhkəmə kolliziya normasının səlahiyyətli bildiyi xarici hüququn tərkib hissəsi olan, amma Azərbaycan Respublikasının tərəfdar çıxmadığı beynəlxalq müqaviləni tətbiq edə bilər. Bu halda: a) beynəlxalq müqavilə istinad edilən xarici hüququn tərkibində tətbiq edilir; b) bu halda tətbiq ad hoc xarakter daşıyır; c) bu halda xarici hüququn, o cümlədən beynəlxalq müqavilənin tətbiqinin nəticələri Konstitusiya və referendumla qəbul edilən aktlara zidd olduqda, məhkəmə onu tətbiq etməkdən imtina edir; 2) biri xarici olan ticarət müqaviləsi tərəfləri arasında Azərbaycan Respublikasının tərəfdar çıxmadığı beynəlxalq müqavilənin müddəalarının tətbiq edilməsi barədə razılaşma (lex voluntatis) olduqda. "Beynəlxalq xüsusi hüquq haqqında" Qanunun 1-ci maddəsinə əsasən, tətbiq edilən hüquq tərəflərin razılaşması ilə müəyyən edilə bilər. Bu halda da tətbiq  ad hoc xarakter daşıyır və onun nəticəsi Konstitusiya və referendumla qəbul edilən aktlara zidd olmamalıdır.

Konstitusiya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquq (bir qayda olaraq müqavilə) normalarının üstün tətbiq edilməsi mövqeyindən çıxış edir. Beynəlxalq hüquq normalarının üstünlüyü beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi (pacta sunt servanda) prinsipinə əsaslanmaqla daxili hüquq normalarının beynəlxalq hüquq normalarına uyğunlaşdırılması zərurətindən irəli gəlir ("Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu, maddə 22). Hesab edirik ki, məhkəmələr tərəfindən beynəlxalq hüquq normalarının necə tətbiq edilməsi tənzimlənən münasibətlərin xarakterindən asılıdır. Belə ki, xüsusi münasibətlər sferasında beynəlxalq müqavilə normalarının birbaşa tətbiq edilməsi ("Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu, maddə 23.4; Mülki Məcəllə, maddə 3.1) ehtimalı daha yüksəkdir. Bu halda beynəlxalq müqavilə nə qanunla yanaşı (praeter leget), nə də qanuna əlavə olaraq (secundum leget) tətbiq edilmir. Əksinə qanundan asılı olmayaraq (burada tərəfdar çıxmaq üzrə qanun nəzərdə tutulmur) tətbiq edilir. Hərçənd Konstitusiya 151-ci maddə ilə əsas tətbiq forması olaraq beynəlxalq (dövlətlərarası) müqavilənin qanunun ziddinə olaraq (contra leget) tətbiq edilməsini müəyyən edir. Hesab edirik ki, beynəlxalq xüsusi münasibətlər sferasında beynəlxalq müqavilə normalarının tətbiqi daxili qanunvericilik aktları (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) ilə ziddiyyətin olmasından asılı olmayaraq baş verir. Bu halda daxili qanunvericilik aktının beynəlxalq müqavilə ilə yanaşı və ya ona əlavə olaraq tətbiq edilməsindən danışmaq olar. Əslində Konstitusiya (maddə 12) insan hüquqları sferasında daxili qanunvericilik aktlarının, hətta Konstitusiyanın müddəalarının da bu formada tətbiq olunmasını müəyyən edir.

Beləliklə, 1995-ci il Konstitusiyası Azərbaycan Respublikasının suverenliyi ilə yanaşı, onun hüquqi sisteminin ümumi qaydasının (ordre public) qorunması funksiyasını yerinə yetirir. Bu kontekstdə 1995-ci il Konstitusiyası beynəlxalq hüquq normalarının dövlətdaxili səviyyədə tətbiqində hüquqi əsas qismində çıxış edir. Hüquqi əsas qismində Konstitusiya Azərbaycan Respublikasının hüquqi sisteminin ümumi qaydasının məzmununu da müəyyən edir. Bununla Konstitusiya, bir tərəfdən, dövlətdaxili ümumi qaydanın beynəlxalq hüququn ümumi qaydasına uyğunluğunu təmin edir, digər tərəfdən, Azərbaycan Respublikasının hüquqi sisteminin ümumi qaydasına zidd olan beynəlxalq hüquq normalarının tətbiqinin qarşısını alır.

## Konstitusiya, suverenlik və insan hüquqları



**Zaur Əliyev,**
**Bakı Dövlət Universiteti**
**Hüquq fakültəsinin dekanı,**
**hüquq elmləri üzrə fəlsəfə doktoru,**
**dosent**

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.

Konstitusiya və suverenlik bir-biri ilə sıx bağlı olan və biri digərini tamamlayan hüquqi-siyasi anlayışlardır. Əgər Konstitusiya dövlətin əsaslarını və mahiyyətini müəyyən edən ali hüquqi sənəddirsə, suverenlik dövlətin əsas əlamətlərindən biridir, yəni dövlətin siyasi-hüquqi mənada dövlət olduğunu göstərən mühüm xüsusiyyətdir.

Konstitusiya latıncadan tərcümədə quruluş, suverenlik isə hökmranlıq deməkdir. Yəni biri dövləti qurur, təsis edir, digəri isə onu güclə təmin edir. Konstitusiya həm də suverenliyi hüquqi çərçivəyə salan sənəddir.

Suverenlik həm də konstitusion müstəqillikdir. Keele Universitetinin professoru Alan Jamesin fikrincə, suverenliyin əsasında hər bir dövlətin milli konstitusiyası dayanır. Dövlət özünün əsas qanununda daxili və xarici aspektdə özünün müstəqilliyini bəyan etməlidir.

Suverenlik doktrinasının banisi tanınmış fransız mütəfəkkiri Jean Boden (1530-1596) hesab edilir. J. Boden müstəqilliyi dövlət hakimiyyətinin əsas göstəricisi sayırdı. Məşhur avstriyalı hüquqşünas alim, Avstriya Konstitusiya Məhkəməsinin yaradıcısı və ilk hakimi Hans Kelzen (1881-1973) ingilis dilində qələmə aldığı “Beynəlxalq hüququn prinsipləri” (“Principles of International Law”, 1952) əsərində qeyd edir ki, “dövlət hakimiyyəti daxildə müstəqil ola bilər, lakin xaricdə isə beynəlxalq hüquqa tabedir”.

Suverenlik həm də hakimiyyətin xalqa mənsub olmasında ifadə olunur. Dövlətin suverenliyi xalqın suverenliyi, xalqın suverenliyi isə şəxsin suverenliyi ilə məhdudlaşır. Hələ 1689-cu ildə siyasi liberalizmin banisi Con Lok “İdarəçilik haqqında iki traktat” əsərində qeyd edirdi ki, ali hakimiyyət xalqa məxsus olmalıdır. Azərbaycan Respublikası Konstitusiyasına əsasən dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır ( m.1.). Suverenlik həm də xalqın əsas və ilkin hüququdur. Azərbaycan Respublikası Konstitusiyasının Preambulasında Azərbaycan xalqının suveren hüququ təsbit olunur.

Suverenlik geniş anlayışdır, ona müxtəlif prizmalardan yanaşmaq olar. Hüquq elmində onun birmənalı definisiyası yoxdur. Hələ 1928-ci ildə Niderland Krallığı ilə ABŞ arasında Palmas adaları ilə bağlı mübahisəyə dair arbitraj qərarında suverenliyə belə bir anlayış verilir: “Dövlətə münasibətdə suverenlik anlayışı onun müstəqilliyini bildirir. Suverenlik dövlətin Yer kürəsinin ona aid olan hissəsində dövlət funksiyalarını sərbəst şəkildə və digər dövlətin iştirakı olmadan həyata keçirilməsində ifadə olunur”.

Suverenlik bir dövlətin, onun hakimiyyətinin digər dövlətdən, onun hakimiyyətindən asılı olmamasını ehtiva edir.

Eyni zamanda qeyd etmək lazımdır ki, dövlətlərin suveren bərabərliyi prinsipi beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən

biridir. Bu prinsip öz birbaşa ifadəsini BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində tapmışdır: “Təşkilat onun bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır”. Suveren bərabərlik prinsipinin məzmunu iki elementdən ibarətdir: 1. hər bir dövlət tam suverenliyə malikdir və öz siyasi və iqtisadi sistemini sərbəst və maneəsiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenliyinə, o cümlədən ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hörmət etməlidir; 2. bütün dövlətlər ərazisinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensialından asılı olmayaraq hüquqi cəhətdən bərabərdirlər.

Suverenlikdən danışarkən 1648-ci il tarixli Vestfal sülh müqavilələrini (Westphalia peace treaties) qeyd etmək lazımdır. Məhz bundan sonra beynəlxalq leksikona “Vestfal suverenliyi” (Westphalian sovereignty) termini daxil oldu. Suverenlik konsepsiyası baxımından "Dövlətlərin hüquq və öhdəlikləri haqqında" 1933-cü il 26 dekabr tarixli Montevideo konvensiyası mühüm əhəmiyyət kəsb edən beynəlxalq aktdır. Qeyd olunan sənədlər suverenlik haqqında elmi doktrinanın formalaşmasına mühüm təsir göstərib.

Dövlət suverenliyi ilə beynəlxalq hüququn qarşılıqlı əlaqəsi məsələsi beynəlxalq hüquq nəzəriyyəsində ən vacib məsələlərdən biridir. Hüquq ədəbiyyatında geniş yayılmış fikrə görə, suverenliklə beynəlxalq hüquq arasında barışmaz ziddiyyət mövcuddur. Amerikalı hüquqşünas alim M. Ceynis hesab edir ki, “suverenlik və beynəlxalq hüquq bir-birini istisna edir”. Əslində isə suverenlik beynəlxalq hüquq üçün zəruridir, çünki beynəlxalq hüquq yalnız suveren dövlətlərin mövcudluğu sayəsində formalaşır. Suverenlik beynəlxalq hüququ yaradır və beynəlxalq hüquq suverenliyi özünün əsası və fundamental prinsipi kimi tanıyır. “Mütləq suverenlik” ideyası isə yanlışdır. Bir dövlətin suverenliyi digər dövlətin suverenliyi ilə məhdudlaşır. Suverenlik hüquq çərçivəsində həyata keçirilir. Beynəlxalq hüquq dövlətin suverenliyini deyil, onun bu və ya digər dərəcədə hərəkət azadlığını məhdudlaşdıra bilər. Beynəlxalq hüquq dövlətlərin suverenliyinin məhdudlaşdırılmasına deyil, əksinə onun müdafiəsinə yönəlib.

Bir sözlə dövlət suverenliyi dövlətin xalqdan gələn, milli və beynəlxalq hüquqa uyğun olaraq müstəqil şəkildə həyata keçirdiyi ali hakimiyyətidir.

Beləliklə həm konstitusiya, həm də suverenlik dövlətin mühüm atributları qismində çıxış edir. Hüquq ilahəsi Femidanı dövlət kimi təsəvvür etsək, bir əlində tərəzi, yəni konstitusiya, ali qanun, digərində isə qılınc, yəni güc – suverenlik tutur. Hər ikisi dövlət üçün vacibdir. Tərəzisiz qılınc özbaşınalıqdır, zorakılıqdır, qılıncsız tərəzi isə dövlətin və hüququn amorfluğudur. Güc – suverenlik hüququn həyata keçirilməsinin əsas üsullarından biridir.

Konstitusiya və suverenlik, hər ikisi insan hüquqları amilinə söykənir, yəni hər ikisinin bünövrəsini insan hüquqlarının üstünlüyü və insan ləyaqətinin toxunulmazlığı prinsipi təşkil edir.

Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ən çox diqqət yetirdiyi sahələrdən biri insan hüquq və azadlıqlarının qorunması olmuşdur. Ulu Öndərin rəhbərliyi altında həyata keçirilmiş islahatlar nəticəsində insan hüquqlarının səmərəli müdafiəsi təmin edilmiş, bütövlükdə insan hüquqlarının inkişafı üçün münbit şərait yaranmışdır.

Bu il həm də müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının ilk milli və hüquqi Konstitusiyasının referendum yolu ilə qəbul edilməsindən 30 il ötür.

Konstitusiya dövlətin hüquqi-siyasi və ictimai sisteminin tərkib hissəsidir. Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan əsas qanun kimi hüquqi mahiyyəti ilə bərabər, həm də sosial-siyasi mahiyyətə malikdir.

Hər bir dövlətin idarəetmə ideologiyası, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində uğurlu siyasəti həmin dövlətin əsas Qanununda – Konstitusiyasında təsbit etdiyi rəhbər prinsip və müddəalardan asılıdır. Əminliklə qeyd edə bilərik ki, Azərbaycan Respublikasının Konstitusiyası bu cür müddəaları uğurla, hüququn aliliyini, əda-

lətliliyi, insan hüquqlarına hörmət edilməsi prinsipini rəhbər tutmaqla bəyan etmişdir.

Müstəqil Azərbaycanın gələcək inkişafının yalnız hüquqi dövlət, demokratik idarəetmə və vətəndaş cəmiyyəti quruculuğu, azad sahibkarlıq və bazar iqtisadiyyatının formalaşdırılması nəticəsində mümkün olacağını yaxşı bilən müdrik liderimiz ilk növbədə bu münasibətləri tənzimləyən yeni qanunvericilik sisteminin, xüsusən də onun əsasını təşkil edəcək Əsas Qanunun – Konstitusiyanın hazırlanıb qəbul edilməsinə çox böyük önəm verirdi. Bu məqsədlə 1995-ci il mayın 2-də yaradılmış və Prezident Heydər Əliyevin rəhbərlik etdiyi Konstitusiya Komissiyasının və İşçi Qrupunun tərkibinə ali və mərkəzi dövlət hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, ictimai xadimlər, elm adamları da daxil idi. İşçi Qrupunun tərkibində Hüquq fakültəsinin müəllimlərinin, hüquqşünas alimlərin olması isə Ulu Öndərin hüquq elminə və alimlərimizə xüsusi inam və etimadının göstəricisidir.

"Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik" – deyən Ulu Öndər Heydər Əliyev konstitusionalist alim kimi bu sahədə bütün problemləri öyrənərək və görkəmli mütəfəkkirlərin elmi irsinə mükəmməl yiyələnərək Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını yaratmışdır.

Həqiqətən də bu akt dünyada nadir konstitusiyalardandır ki, burada demokratik hüquqi dövlətin bütün prinsipləri – hüququn aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunmuş, insan hüquqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilmiş, Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr edilmişdir.

Xüsusilə qeyd etməliyik ki, Ulu Öndərin milli dövlətçilik ideyaları uğrunda mübarizəsi hələ 1978-ci il Konstitusiyasının qəbulu zamanından başlamışdı. Həmin Konstitusiyanın qəbul olunmasında müstəsna rolu olmuş Ümummilli Liderimizin tələbi ilə Konstitusiyada dövlət dili kimi Azərbaycan dili müəyyən edilmişdi. Belə ki, 73-cü maddəyə əsasən: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif müəssisələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir". Bu Konstitusiyada həmçinin Dağlıq Qarabağ və onun orqanlarının hüquqi statusu "Yerli dövlət hakimiyyət orqanları" fəsli daxilində müəyyən edilmişdi, yəni ona ayrıca, xüsusi önəm verilmirdi. Bu da Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətlərindən biri idi. Konstitusiyada həmçinin bir sıra hüquqlar – vəzifəli şəxslərin hərəkətindən şikayət vermək hüququ, sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, yaradıcılıq azadlığı kimi hüquq və azadlıqlar da təsbit olunmuşdur. İstər dövlət dili ilə bağlı müddəanın, istərsə də Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin autentik nüsxələrindən birinin "tam məxfi" qrifi ilə SSRİ Xarici İşlər Nazirliyində saxlandığı bir vaxtda insan hüquqları ilə bağlı müddəaların Konstitusiyada təsbit olunması böyük cəsarət tələb edirdi.

Tam əminliklə deyə bilərik ki, müstəqilliyimizin təməli Ulu Öndər tərəfindən hələ SSRİ vaxtı qoyulmağa başlanmışdır. Məhz Ulu Öndərin müstəsna xidmətləri və qətiyyəti sayəsində 1978-ci il Konstitusiyasına milli dövlətçiliyimizə xidmət edən müddəalar daxil edilmişdir.

Azərbaycan Respublikasının müasir Konstitusiyası insan hüquqları doktrinasına əsaslanır. Burada ilk dəfə olaraq insan hüquqlarına dair təbii hüquq nəzəriyyəsi öz əksini tapmışdır. 24-cü maddənin II hissəsində göstərilmişdir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Bu müddəanın söykəndiyi fəlsəfəyə görə, insan hüquqları onların normativ təsbitindən kənar və asılı olma-

yaraq mövcuddur və Konstitusiyamızda öz əksini tapmış əsas hüquq və azadlıqların siyahısına daxil olmaqla insan hüquqlarının qanunvericilikdə, xüsusilə Konstitusiya qaydasında pozitivləşdirməklə onların dəqiq hüquqi prosedurlar vasitəsilə lazımi müdafiəsi üçün prinsipial əhəmiyyət kəsb edir. Azərbaycanın dövlət quruculuğu tarixində ilk dəfə idi ki, təbii hüquq nəzəriyyəsi əsas qanunda öz əksini tapırdı.

Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan 48 maddədən ibarət III fəslinin bütün mətni insana, insan ləyaqətinə, insan hüquqlarına hörmət ruhunda yazılmışdır. Ona görə də bəşər sivilizasiyasının iki mütərəqqi ideyasının – konstitusionalizm və insan hüquqlarının müdafiəsi ideyalarının üzvi bağlılığı Azərbaycan Respublikasının Konstitusiyasında özünün layiqli ifadəsini tapmışdır.

Konstitusiyada insan ləyaqəti xüsusi diqqət mərkəzinə gətirilir. İnsan ləyaqəti həm ümumbəşəri dəyər, həm konstitusion prinsip, həm də subyektiv hüquq kimi qəbul edilir.

İlk növbədə qeyd etmək lazımdır ki, ləyaqət insan hüquqlarının əsasını və bünövrəsini təşkil edir. İnsan hüquqları doktrinası bütövlükdə ali dəyər olan insan ləyaqətinə əsaslanır. Ləyaqət – yaşından, cinsindən, dilindən, dinindən, irqindən, əmlak vəziyyətindən, siyasi mənsubiyyətindən və digər əlamətlərdən asılı olmayaraq hər bir insanın (o cümlədən uşağın, hətta ana bətnində olan uşağın belə) toxunulmaz, pozulmaz və ayrılmaz təbii keyfiyyətidir. Ləyaqətindən imtina etmək hüquq və azadlıqlarından imtina etməyə, hüquq və azadlıqlarından imtina etmək isə ləyaqətindən imtina etməyə bərabərdir. İnsan hüquqları doktrinasında ləyaqət konsepsiyası mərkəzi yerlərdən birini tutur. İnsan hüquqlarına dair bütün beynəlxalq hüquqi aktlar insan ləyaqətinin toxunulmazlığı və ona hörmət olunması prinsipinə əsaslanır. İnsan hüquqları sahəsində fundamental sənəd olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində bununla bağlı bir sıra normalar mövcuddur. Bəyannamənin preambulasına əsasən, bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınması azadlıq, ədalət və ümumi sülhün əsasıdır. Bəyannamənin 1-ci maddəsinə əsasən isə, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar.

İnsanın hüquq və azadlıqları birbaşa olaraq məhz ləyaqətdən irəli gəlir. İnsanın hüquq və azadlıqlarını qorumaq üçün ilk növbədə onun ləyaqəti dövlət tərəfindən qorunmalıdır. 1975-ci il tarixli Helsinki Yekun Aktında dövlətlərin insan şəxsiyyətinə məxsus ləyaqətdən irəli gələn və insanın azad və hərtərəfli inkişafı üçün əsas olan mülki, siyasi, iqtisadi, sosial, mədəni və digər hüquq və azadlıqların səmərəli həyata keçirilməsini təşviq və inkişaf etdirəcəkləri qeyd edilir.

Ləyaqət həmçinin insana dövlət tərəfindən verilən ictimai dəyərdir. Ləyaqətin dövlət tərəfindən qorunması insanın xoşbəxt həyat sürə bilməsi üçün ən vacib şərtlərdən biridir. Ləyaqəti tapdanmış insan xoşbəxtlik hissini itirmiş olur. Ləyaqət konsepsiyasına əsasən, insan ən ali, ən dəyərli, ən dahi varlıqdır. Hələ qədim yunan mütəfəkkiri Sofokl bildirirdi ki, "Yer üzündə ali varlıqlar çoxdur, lakin insandan alisi yoxdur". Dahi fransız hüquqşünası və filosofu Şarl Lui de Monteskye insan ləyaqətinə böyük önəm verərək yazırdı: "Mən ilk növbədə İnsanam, sonra isə fransızam". Tanınmış alman filosofu Lüdviq Feyerbaxın fikrincə isə ləyaqət – insanın böyüklüyü, onun ən ali dəyəridir.

Azərbaycan mütəfəkkirləri ləyaqət konsepsiyasına böyük önəm vermişlər. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi təxminən 900 il əvvəl insan ləyaqətinə böyük önəm verərək "Sirlər xəzinəsi"ndə yazırdı:

**Sən ey fələklər qədər uca, dəyərli İnsan!**
**Nazını çəkməkdədir bu yer, bu göy, kəhkəşan.**
**Heç xəbərin varmı ki, səsin yetişir hara?**
**Sənin zənn etdiyindən xeyli ucalıqlara!**

Dahi Azərbaycan filosofu İmadəddin Nəsimi təxminən 700 il əvvəl insanı, onun ləyaqətini önə çəkərək yazırdı:

**Məndə sığar iki cahan,**
**mən bu cahana sığmazam.**

**Həm sədəfəm, həm inciyəm,**
**Adım Adəmdir, Adəməm mən,**
**bu məkanə sığmazam.**
**Zərrə mənəm, günəş mənəm,**
**Şəms mənəm, qəmər mənəm,**
**şəkər mənəm.**

Ulu Öndər Heydər Əliyev öz fəaliyyətində insan ləyaqətinin toxunulmazlığı və ona hörmət olunması konsepsiyasını rəhbər tuturdu. Ulu Öndər deyirdi: "İnsan ləyaqətinə hörmət Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gəlir".

Ləyaqət nəinki fəlsəfi-etik, həm də konstitusion-hüquqi kateqoriyadır. XVIII əsrin sonları, XIX əsrin əvvəllərində ləyaqət konstitusion mühafizə obyektinə çevrilməyə başladı. XX əsrdə isə "insan ləyaqəti" kateqoriyası bir çox ölkələrin konstitusiyalarının ayrılmaz elementini təşkil etdi. Almaniya Konstitusiyasının 1-ci maddəsində deyilir: "İnsan ləyaqəti toxunulmazdır. Ona hörmət etmək və onu qorumaq bütün dövlət hakimiyyətinin vəzifəsidir". İsveçrə Konstitusiyasının 7-ci maddəsinə əsasən, insan ləyaqətinə hörmət edilməlidir və o qorunmalıdır. İtaliya Konstitusiyasının 3-cü maddəsinə görə, bütün vətəndaşlar bərabər ictimai ləyaqətə malikdirlər. İspaniya Konstitusiyasının 10-cu maddəsinə müvafiq olaraq, şəxsiyyətin ləyaqəti siyasi nizamın və ictimai sülhün əsasıdır. Yunanıstan Konstitusiyasının 2-ci maddəsinə əsasən, insan ləyaqətinə hörmət etmək və onu qorumaq dövlətin birinci dərəcəli vəzifəsidir. Polşa Konstitusiyasının 30-cu maddəsində göstərilir: "İnsanın anadangəlmə və ayrılmaz ləyaqəti insan və vətəndaş hüquq və azadlıqlarının mənbəyini təşkil edir. O, toxunulmazdır, ona hörmət edilməsi və onun qorunması hakimiyyət orqanlarının vəzifəsidir.". "Ləyaqət" kateqoriyasının iki aspektini fərqləndirmək olar: insan ləyaqətinə hörmət insan hüquqları hüququnun ümumtanınmış prinsipi kimi və ləyaqət subyektiv hüquq kimi. Bir sıra müasir demokratik-hüquqi konstitusiyalar "ləyaqət" kateqoriyasının birinci aspektini ehtiva edir. Qeyd etmək lazımdır ki, "ləyaqət" kateqoriyasının hər iki aspekti Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın 24-cü maddəsinin I hissəsinə əsasən, insan ləyaqəti qorunur və ona hörmət olunur. Konstitusiyanın 46-cı maddəsinə müvafiq olaraq, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Bununla da, Azərbaycan Konstitusiyası ləyaqət konsepsiyasını tam şəkildə özündə əks etdirir.

Milli Konstitusiyamızın mühüm xüsusiyyəti kimi burada hüquq və azadlıqların bilavasitəliyinin təsbit olunmasıdır ki, bu prinsip insanın öz hüquqlarını bütün qanuni vasitələrlə qoruya bilməsini təmin edir və dövlət onları tanımağa, riayət etməyə və qorumağa borcludur. Bilavasitəlik prinsipinin əsas mahiyyəti ondan ibarətdir ki, hüquq və azadlıqlar birbaşa tanınır, bunun üçün əlavə qanunvericilik tədbirlərinə ehtiyac yoxdur. İnsan hüquq və azadlıqları bütün qanunların mənasını, məzmununu və tətbiqini, o cümlədən qanunvericilik və icra hakimiyyəti də daxil olmaqla bütün dövlət orqanlarının fəaliyyətini müəyyən edir. Eyni zamanda dövlət insan və vətəndaş hüquq və azadlıqlarını tanımağa, onlara riayət etməyə və müdafiə etməyə, onların müdafiəsini təmin etməyə borcludur. Hər kəs istər dövlət, istərsə də başqa şəxslər tərəfindən törədilən hər hansı pozuntudan qorunmaq üçün öz hüquq və azadlıqlarından birbaşa istifadə edə bilər.

İnsan hüquqları sahəsində beynəlxalq standartları adekvat əks etdirməklə yanaşı, Azərbaycan Respublikası Konstitusiyasında, eyni zamanda belə bir mütərəqqi müddəa nəzərdə tutulmuşdur: "...Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir" (12-ci maddənin II hissəsi).

Eyni zamanda, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan olunması xüsusi qeyd olunmalıdır. Çünki məhz layiqli həyat səviyyəsinin təmin edilməsi digər hüquq və azadlıqların da maneəsiz həyata keçirilməsini təmin

edir. "Layiqli həyat səviyyəsi" müasir inkişaf etmiş cəmiyyətin standartları səviyyəsində maddi təminatı, mədəni dəyərlərə çıxışı, həm işləyənlərin, həm də işləyə bilməyənlərin şəxsi və ailə təhlükəsizliyi hüquqlarını təmin edən normalar məcmusudur. Layiqli həyat səviyyəsi bir iqtisadi elementdən deyil, bir çox elementlərdən ibarət olan daha mürəkkəb, əhatəli bir anlayışdır. Daha konkret desək, milli Konstitusiyamız tələb edir ki, dövlət elə zəmin yaratmalıdır ki, hər bir şəxs özünü qorunmuş hiss etsin, dövlətin onun qayğısına qaldığına əmin olsun. Bütün bunlar da Ana Qanunun sosial dövlət ideyalarına söykəndiyini bir daha təsdiq edir.

12-ci maddənin təhlili eyni zamanda onu deməyə əsas verir ki, insan hüquqları sahəsində etatizm doktrinasından imtina edilmiş və bunun əvəzinə mütərəqqi konsepsiya kimi insanın mərkəzdə olduğu humanizm doktrinası rəhbər tutulmuşdur.

İnsan hüquqlarının Konstitusiyanın təsbitinin əsasında duran mühüm prinsiplərdən biri də Konstitusiyanın 25-ci maddəsində əks olunmuş hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipidir. Bu müddəanın III fəsildə ön plana çəkilməsi prinsipial əhəmiyyətə malikdir. Belə ki, praktikada bərabərlik hüququnu təmin etmədən insanın bütün digər hüquq və azadlıqlarının real qorunmasına nail olmaq mümkün deyildir. Buna görə də 25-ci maddənin III hissəsində birmənalı şəkildə göstərilmişdir ki, dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konstitusiyada təsbit olunmuş hüquqlar sırasında yaşamaq hüququnun təminatı xüsusi qeyd edilməlidir. Yaşamaq hüququnun təsbit olunduğu konstitusiya müddəasına əsasən, dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır. Yəni heç kəs özbaşına həyatdan məhrum edilə bilməz.

Ulu Öndər Heydər Əliyev yaşamaq hüququna xüsusi önəm verərək xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra atdığı ilk addımlardan biri məhz ölüm hökmlərinin icrasının dayandırılması oldu. Bununla bağlı Ulu Öndər deyirdi: "1993-cü ilin iyun ayından biz Azərbaycanda ölüm hökmlərinin icrasını dayandırmışıq. Baxmayaraq ki, o illər bizim üçün çox mürəkkəb, ağır, çətin illər olubdur, Azərbaycan dövlətini, onun müstəqilliyini qoruyub saxlamaq, dövlətçiliyə olan qəsdlərin qarşısını almaq lazım idi. Şübhəsiz ki, bunlar çox qəti addımlar atmaq, tədbirlər görmək, həyata keçirmək tələb edirdi. Biz bunları etmişdik. Ancaq biz humanistliyimizi də itirməmişdik. Məhz ona görə də biz ölüm hökmünün icrasını dayandırmışdıq". Ulu Öndərin Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında Milli Məclisə 1998-ci il 3 fevral tarixli müraciətində deyilirdi: "Ölüm hökmünün ləğvi ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verir, cəmiyyətimizi insaniləşdirir, insan ləyaqətinə hörmət və ehtiram nümayiş etdirir. İnsan ləyaqətinə, bütövlükdə insan hüquqları ideyasına zidd olan bu cəzanın tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir". Bütün bunlar Ulu Öndər Heydər Əliyevin insan həyatına, onun hüquqlarına və ləyaqətinə verdiyi yüksək qiymətin, xüsusi önəmin bariz göstəricisidir. Beləliklə, Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə müraciət əsasında qəbul edilmiş "Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Mə-

cəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" 1998-ci il 10 fevral tarixli qanunla ölüm hökmü tamamilə ləğv edilmişdir. Ulu Öndər ölüm hökmünü ləğv etməklə bəşəri humanizmə və beynəlxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirmişdir.

Şərqdə ilk dəfə olaraq, ölüm cəzasının Azərbaycanda ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini, demokratik prinsiplərin inkişafına xüsusi önəm verdiyini bir daha təsdiqləmiş oldu.

İnsan hüquq və azadlıqlarının real təmin edilməsi üçün həlledici şərtlərdən biri də şəxslərə öz hüquqlarını müdafiə etmək və pozulmuş hüquqlarını bərpa etmək imkanının verilməsidir. Hələ qədim Roma hüququndan bizə belə bir hüquqi aksiom məlumdur ki, hüquq olan yerdə onun müdafiə vasitəsi də olmalıdır (ubi jus ibi remedium). Hüquqi dövlətin bu mühüm tələbi Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsində birbaşa öz ifadəsini tapmışdır. Həmin maddənin I hissəsində deyilir ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Şəxsiyyətin ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar hüquqlarına təminat verilməsi Konstitusiyanın mühüm müddəalarından biridir. Bu müddəa hüquqi yardım almaq, məhkəmədə müdafiə olunmaq, müdafiəçinin köməyindən istifadə etmək, məhkəmə qərarından şikayət vermək, təqsirsizlik prezumpsiyası hüququnu və başqa hüquqları əhatə edir. Bundan əlavə, Əsas Qanun məhkəmə aidiyyətinin dəyişdirilməsinə, eyni cinayət üstündə təkrar məhkum edilməyə, habelə qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol vermir. Konstitusiyaya görə, hər bir şəxsin cinayət, hakimiyyətdən sui-istifadə, yaxud dövlət orqanlarının və ya vəzifəli şəxslərin qanuna zidd hərəkətləri nəticəsində ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

Konstitusiyanın 24-cü maddəsinə əsasən, hüquqlardan sui-istifadəyə yol verilmir. İlk növbədə onu qeyd etmək lazımdır ki, insan hüquqlarının və əsas azadlıqların Konstitusiyada və digər qanunvericilik aktlarında təsbit edilməsi və səmərəli şəkildə təmin edilməsi, müdafiəsi və onlara hörmət olunması nə qədər vacibdirsə, bu hüquq və azadlıqlardan sui-istifadə edilməsi cəmiyyət üçün bir o qədər təhlükəlidir. Hüquqlardan sui-istifadə insan hüquqlarının mənəviyyata və əxlaq normalarına zidd şəkildə həyata keçirilməsidir. İnsan hüquqlarının həyata keçirilməsinin əsas şərti bu hüquqların qanun çərçivəsində, qanunauyğun şəkildə və qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilməsidir. Hüquqlardan sui-istifadə edilməsi hüquq pozuntusunun xüsusi formasıdır, sui generis hüquq pozuntusudur. Hüquqlardan sui-istifadə nəticəsində insana, cəmiyyətə və dövlətə ciddi zərər dəyir. Hüquqlardan sui-istifadə hüquq və azadlıqların, onların əsl mahiyyətinə və təyinatına zidd olaraq həyata keçirilməklə digər şəxslərin hüquqlarının pozulmasına gətirib çıxarır. Hüquqlardan sui-istifadənin qadağan edilməsi müasir dövrdə beynəlxalq insan hüquqları hüququnun ümumqəbuledilmiş prinsipi kimi nəzərdən keçirilə bilər. İstər milli qanunvericilikdə, o cümlədən konstitusiyada, istərsə də beynəlxalq hüquqi aktlarda, o cümlədən insan hüquqlarına dair fundamental beynəlxalq sənədlər olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada təsbit edilmiş istənilən hüququn qanuna, insan hüquqlarının mahiyyətinə zidd şəkildə həyata keçirilməsi, yəni bu hüquqlardan sui-istifadə edilməsi qanunla qadağan edilməlidir. Bu, digər şəxslərin hüquq və azadlıqlarının, mənəviyyatın və ictimai qaydanın, qanunçuluğun və təhlükəsizliyin təmin edilməsi üçün olduqca vacibdir. Məhz bu prizmadan çıxış edərək bir sıra demokratik-hüquqi dövlətlərin konstitusiyalarında bu prinsip öz əksini tapmışdır. Yunanıstan Konstitusiyasının 25-ci maddəsinə əsasən, hüquqlardan sui-istifadəyə yol verilmir. Bolqarıstan Konstitu-

siyasının 57-ci maddəsinə müvafiq olaraq, hüquqlardan sui-istifadə edilməsinə yol verilmir. Niderland Konstitusiyasında hüquqlardan sui-istifadəyə görə məsuliyyət prinsipi öz əksini tapmışdır. Məsələn, ifadə azadlığını və toplaşmaq azadlığını nəzərdə tutan 7-ci və 9-cu maddələrdə bu prinsip birbaşa olaraq təsbit olunmuşdur. Yaponiya Konstitusiyasının 12-ci maddəsində deyilir: "Xalq hüquqlardan və azadlıqlardan hər cür sui-istifadə hallarından çəkinməlidir və onlardan yalnız ictimai rifah maraqları naminə istifadə olunmasına məsuliyyət daşıyır". Hüquqlardan sui-istifadəyə yol verilməməsi ilə bağlı müddəanın Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunması insan hüquq və azadlıqlarının səmərəli təmininə, hüquq qaydasının mühafizəsinə xidmət edir.

İnsan hüquqları baxımından daha bir mühüm müddəa Konstitusiyanın 60-cı maddəsində öz əksini tapmışdır. Konstitusiyaya əsasən, hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. İlk növbədə onu qeyd etmək lazımdır ki, işə ağlabatan müddətdə baxılması hüquqi dövlətin əsasını təşkil edən ədalət mühakiməsinin əsas elementlərindən biridir. Beynəlxalq hüquqda ağlabatan müddətin insan hüquqlarının səmərəli təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıması ilə bağlı bir sıra mühüm normalar mövcuddur. Beynəlxalq insan hüquqları hüququnun ən mühüm mənbələrindən biri olan Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə əsasən, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Avropa Şurası Nazirlər Komitəsinin 1997-ci ildə qəbul etdiyi qətnaməyə əsasən, ədalət mühakiməsinin həyata keçirilməsinin hədsiz ləngiməsi nəinki proses iştirakçılarına ziyan vurur, həm də hüquqi dövlətə təhlükə törədir. Avropa İnsan Hüquqları Məhkəməsi dəfələrlə vurğulamışdır ki, ədalət mühakiməsinin həyata keçirilməsinin yubadılması onun səmərəliliyini şübhə altına alır. Avropa Məhkəməsi tərəfindən ağlabatan müddətin konkret olaraq rəqəmlə hansı müddəti əhatə etməsi müəyyən edilməmişdir. Avropa Məhkəməsinin mövqeyinə görə bu məsələ situasiyadan asılı olaraq hər bir işə konkret fərdi yanaşma tələb edir. Ağlabatan müddətin təyin edilməsi üçün Avropa Məhkəməsi tərəfindən 4 kriteriya müəyyən edilmişdir: işin mürəkkəbliyi, milli səviyyədə məhkəmə proseslərində ərizəçinin davranışı, müvafiq işə baxan milli məhkəmə orqanlarının davranışı, ərizəçinin qanuni maraqlarının və hüquqlarının həyata keçirilməsi üçün vaxt faktorunun əhəmiyyəti. Beləliklə, ağlabatan müddət qeyd olunan kriteriyalar nəzərə alınmaqla işin hallarının öyrənilməsi nəticəsində müəyyən edilir. Ağlabatan müddətlə bağlı müddəalar ayrı-ayrı dövlətlərin konstitusiyalarında da öz əksini tapmışdır. Niderland Konstitusiyasının 15-ci maddəsinə əsasən, işə məhkəmədə baxılmasından əvvəl azadlıqdan məhrum edilmiş şəxsin üzərində məhkəmə ağlabatan müddətdə keçirilməlidir. İsveçrə Konstitusiyasının 29-cu maddəsinə görə, hər kəs məhkəmə və inzibati instansiyalar qarşısında bərabər və ədalətli rəftar, həmçinin qərarın ağlabatan müddətdə çıxarılması hüququna malikdir. Göründüyü kimi, işə istər inzibati icraat, istərsə də məhkəmə prosesində ağlabatan müddətdə baxılması müasir beynəlxalq hüququn tələbi olmaqla yanaşı, bir sıra hüquqi dövlətlərin əsas qanunlarında bilavasitə öz əksini tapmışdır. Məşhur ingilis kəlamında deyildiyi kimi "Gecikmiş ədalət mühakiməsi qüsurludur". Məhz bu baxımdan Konstitusiyada təsbit olunmuş işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılması ilə bağlı müddəa insan hüquqlarının və əsas azadlıqların məhkəmə təminatını gücləndirməklə hüquqi dövlətin ən mühüm prinsiplərindən olan ədalət mühakiməsinin səmərəli, qərəzsiz və şəffaf həyata keçirilməsi prinsipinin möhkəmlənməsinə xidmət edir.

Konstitusiyanın insan hüquqları ilə bağlı ən mühüm normalarından biri də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı" adlı 71-ci maddəsidir. Həmin maddəyə əsasən, Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. İnsan hüquqları baxımından müstəsna əhəmiyyət kəsb edən bu normanı təhlil edərək belə nəticəyə gəlmək olar ki, Konstitusiyada təsbit edilib edilməməsindən asılı olmayaraq fundamental beynəlxalq hüquqi aktlarda öz əksini tapmış, yəni ümumtanınmış insan hüquq və azadlıqları Azərbaycan ərazisində qüvvədədir və birbaşa tətbiq edilə bilər. Yəni bu hüquqların milli hüquq tətbiq edən orqanlar, məhkəmələr tərəfindən tətbiq edilə bilməsi üçün onların dövlətdaxili hüquqa gətirilməsi mütləq deyil. Konstitusiya imkan verir ki, fundamental, ümumqəbulolunmuş insan hüquqları pozulduğu halda, hətta pozulmuş hüquq (hüquqlar) milli qanunvericilikdə öz əksini tapmasa belə, pozuntuya məruz qalan şəxs məhkəmə orqanlarına pozulmuş hüququn bərpası üçün müraciət etsin.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ən çox diqqət yetirdiyi sahələrdən biri insan hüquq və azadlıqlarının qorunması olmuşdur. Ulu Öndərin rəhbərliyi altında həyata keçirilmiş islahatlar nəticəsində insan hüquqlarının səmərəli müdafiəsi təmin edilmiş, bütövlükdə insan hüquqlarının inkişafı üçün münbit şərait yaranmışdır.

Məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu mərhələnin əsas hədəfi insan hüquqlarına hörmətin təmin olunması və işğaldan azad edilmiş ərazilərin bərpası və çiçəklənməsidir.

Prezident İlham Əliyevin cəmiyyətdə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, demokratiyanın inkişafı, vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində fəaliyyəti nəticəsində bu gün Azərbaycan hüquqi dövlət ideyasının reallaşdığı, dövlət, cəmiyyət və şəxsiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, müxtəlif millətlərin dilinin, dininin, mədəniyyətlərinin qovuşması nəticəsində yaranmış, tolerantlıq prinsiplərinə sadiq, multikultural mühitin formalaşdığı bir məkana çevrilmişdir. Bütövlükdə Prezident İlham Əliyevin yürütdüyü siyasət məhz insan hüquq və azadlıqlarının səmərəli təmininə yönəlmişdir.

Ulu Öndərin xeyirxahlıq və humanizm missiyası bu gün dahi liderin adını daşıyan və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Fondun həyata keçirdiyi çoxsaylı sosial layihələr, eyni zamanda Fondun Prezidenti Mehriban xanım Əliyevanın vaxtilə (2013-cü ildə) amnistiya aktının qəbul olunması ilə bağlı Milli Məclisə müraciəti buna əyani sübutdur.

Hazırda respublikamız özünün yeni intibah dövrünü yaşayır. 2020-ci ilin sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı irimiqyaslı hücumuna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş özünümüdafiə hüququndan istifadə edərək, öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi nəticəsində 30 ilə yaxın davam edən işğala son qoydu. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən uğurlu anti-terror əməliyyatı nəticəsində isə dövlət suverenliyimiz tam bərpa olundu. Ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə Azərbaycan həm də pozulmuş beynəlxalq hüquq normalarını da bərpa etmiş oldu.

Ulu Öndər Heydər Əliyev dövlətin əsas qanunu olan Konstitusiyanı yaratdı, Müzəffər Ali Baş Komandan İlham Əliyev isə dövlətin əsas sütununu təşkil edən suverenliyi bərpa etdi. Əgər Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisidirsə, Müzəffər Ali Baş Komandan İlham Əliyev qalib Azərbaycan dövlətinin banisidir.

Mətbəənin rekvizitləri